DR. YUSİF İBN ƏBDÜRRƏHMAN ƏR-RƏŞİD



Tovhid.info

# ƏN MÜHÜM DİNİ BİLGİLƏR

Tərcümə edən

*Əbu Zeyd Həbibli*

# ƏN MÜHÜM DİNİ BİLGİLƏR

***Müəllif:***
Dr. Yusif ibn Əbdürrəhman ər-Rəşid

***Tərcümə edən:***
Əbu Zeyd Həbibli

***Redaktə:***
Sahib Əsədov
Sevinc Qocayeva

© Kitabın bütün hüquqları qorunur

بسم الله الرحمن الرحيم

# TƏQDİMAT

## Mərhəmətli və Rəhmli Allahın adı ilə

İstədiyi bəndəsinə hidayət verən və nəfsinə uyaraq qovulmuş şeytana tabe olanları azdıran, sonsuz hikmət və izzət sahibi olan Allaha həmdü-sənalar olsun. Mən şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur. O, təkdir və şəriksizdir, Mərhəmətli və Rəhimlidir. Yenə şəhadət edirəm ki, bizim peyğəmbərimiz və ağamız olan Muhəmməd ﷺ Allahın haqq din ilə göndərmiş olduğu qulu və elçisidir. Allahım, öz salamını, xeyir-duanı və bərəkətini qulun və rəsulun olan Muhəmmədin, Nəim Cənnətlərinə və xeyir əməllərə nail olan əshabının və əhli-beytinin üzərindən əskik etmə!

Bu, şeyx ***Yusif ibn Əbdürrəhman ər-Rəşid*** qardaşımızın İslam dinini tanıtmaq qəsdi ilə qələmə aldığı asan üslubda yazılmış və ən mühüm dini bilgiləri özündə ehtiva edən bir kitabçadır. O, burada qeyd etdiyi məsələləri dəlilləri ilə birgə zikr etmişdir ki, müsəlmanlar üçün bir xatırlama, qeyri-müsəlmanlar üçün isə bir dəlil və ibrət olsun. Mən bu kitabı həcmi kiçik də olsa, ən mühüm bilgiləri özündə ehtiva edən, son dərəcə faydalı və münasib bir kitab kimi dəyərləndirir, Allahdan onun xeyirli olmasını diləyirəm. Həqiqətən də, O hər şeyə qadirdir.

**✍ Peyğəmbər məscidinin imam xətibi:**
**Hörmətli doktor Əli ibn Əbdürrəhman əl-Hüzeyfi**
Hicri: 1432/11/2

❁ ❁ ❁

# TƏQDİMAT

## Mərhəmətli və Rəhmli Allahın adı ilə

Aləmlərin Rəbbi olan Allaha həmdü-sənalar, Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə isə Allahın salamı, xeyir-duası və bərəkəti olsun!

Uca Allah bütün şəriətləri və öz dinini peyğəmbərimiz Muhəmməd ﷺ ilə tamamlamış və onun şəriətini son dərəcə asan, bütün bəşəriyyət üçün yararlı, hər bir zamana, hər bir vəziyyətə və hər kəsə münasib mötədil bir şəriət etmişdir. Allah bu şəriətdən başqasını heç kəsdən qəbul etməz. Ona görə də hər bir kəsə Allahın rəhmətinə məzhər olması və Onun əzabından qorunması üçün dinində ona bilməsi zəruri olan bilgiləri və onu Rəbbinə yönəldəcək şeyləri öyrənməsi vacibdir. Təbii ki, insandan hər bir məsələni təfsilatı ilə öyrənməsi tələb olunmur, lakin dinin təməl mövzuları vardır ki, belə məsələlərdən cahil qalması onun üçün üzr sayıla bilməz. Əksinə, bu cür mövzuları öyrənməsi və bu haqda sorub-soruşdurması ona vacibdir. Uca Allah hörmətli şeyx doktor ***Yusif ibn Əbdürrəhman ər-Rəşidi*** tövhiddə, Quran təfsirində və ibadətlərdə heç bir müsəlmana cahil qalması icazəli olmayan dinin əsas bilgilərini bir yerə toplamağa müvəffəq etmişdir. O hər bir tələbənin və müəllimin, habelə İslamda yeni olan kəslərin ehtiyac duyduğu bu bilgilərin hamısını iyirmi dərs içərisində toplamışdır. Hətta bu kitab dəlil və ibrət yönündən qeyri-müsəlmanların da istifadəsi üçün yararlı bir kitabdır. Bu kitab son dərəcə dəqiq bir şəkildə tərtib edilmiş tədris və təbliğ kitabıdır. Kitabın içərisində olan bilgilər bütün müsəlmanların üzərində ittifaq etdikləri mövzulardır. Nəhayət, bu kitab tədris edilmək, əzbərlənmək, müxtəlif dillərə tərcümə və şərh edilmək, nəşr olunmaq üçün tam əlverişli bir kitabdır.

Uca Allahdan diləyirəm ki, bu kitabı faydalı bir kitab və müəllifi üçün də Qiyamət gününəcən qalıcı olan saleh bir əməl etsin. Aləmlərin Rəbbi olan Allaha həmdü-sənalar, Peyğəmbərimiz

Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə isə Allahın salamı, xeyir-duası və bərəkəti olsun!

**✍ Kəbə məscidinin imam xətibi, Məkkə şəhərinin qazisi: Saleh ibn Muhəmməd ali Talib**

❁ ❁ ❁

# MÜQƏDDİMƏ

## Mərhəmətli və Rəhmli Allahın adı ilə

Həmdü-sənalar yalnız və yalnız Allaha məxsusdur! Ona həmd edir, Ondan yardım istəyir, Onun məğfirətini diləyirik. Nəfsimizin şərindən və əməllərimizin pisliklərindən Ona sığınırıq. Allah kimi doğru yola yönəltsə, onu azdıracaq, kimi də azdırsa, onu doğru yola yönəldəcək kəs yoxdur. Mən şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur. O, təkdir və şəriksizdir. Yenə şəhadət edirəm ki, Muhəmməd ﷺ Allahın qulu və son elçisidir.

*“Ey iman gətirənlər! Allahdan layiqincə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!”* (Ali-İmran: 102)

*“Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən həzər edin! Həqiqətən, Allah sizə nəzarət edir”* (ən-Nisa: 1).

*“Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin ki, O, əməllərinizi islah etsin və günahlarınızdan keçsin. Kim Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir uğur qazanar”* (əl-Əhzab: 70-71).

Uca Allah belə buyurur: *“Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım”* (əz-Zəriyət: 56). Uca və qüsursuz olan Allah bu ayədə bizlərə bəyan edir ki, insanların yaradılışında olan qayə və hikmət məhz tək və şəriksiz olan Allaha ibadətdir. Elə bu məqsədlə də Uca Allah insanlar üçün peyğəmbərlər göndərmiş və kitablar nazil etmişdir. Həmin kitabların sonuncusu və ən şərəflisi Qurani-Kərim, həmin peyğəmbərlərin də axırıncısı və ən əfzəl olanı peyğəmbərimiz Muhəmməddir ﷺ. Uca Allah həm Qurani-Kərimdə, həm də Peyğəmbərinin ﷺ dili ilə hər bir müsəlmana etiqadında, Rəbbinə olan ibadətlərində və insanlarla əlaqəli işlərində ehtiyacı olan bütün şeyləri: haramları, vacibatları və digər hökmləri bəyan etmişdir. Bütün bunları Allahın elçisi ﷺ, sonra

onun əshabı ﷺ, onlardan sonra isə tabiinlər[1] və onlardan sonra gələnlər növbəti nəsillərə nəql etdilər. Daha sonra ardıcıl olaraq dörd imam[2], yəni imam Əbu Hənifə ən-Noman, imam Malik ibn Ənəs, imam Muhəmməd ibn İdris əş-Şafi, imam Əhməd ibn Hənbəl (Allah hamısına qəni-qəni rəhmət eləsin!) gəldi və bütün bu şəriət elmlərini özlərindən sonrakı nəsillərə ötürdü. Belə ki, onlar bu elmləri öz tələbələrinə mənimsətdilər, şəriət əhkamlarının əsasını təşkil edən qayda-qanunları təsis etdilər, təsis etdikləri bu qaydalar üzərində onların fiqhi[3] – elm və fətvaları tədvin edilərək kitablara köçürüldü və sonda "dörd məzhəb" olaraq bilinən məzhəblər (yəni elmi məktəblər) əmələ gəldi. Sonra isə bu məzhəblər bizim zamanımıza gəlib çatanacan onların tələbələri və onlardan sonra gələn nəsillər tərəfindən nəql olunmağa başlanıldı.[4]

İmamların və onların tələbələrinin tədvin etdikləri əsərlərin cildlərlə kitablar olduğunu və əksər müsəlmanların o kitablara müraciət etmələrinin və beləcə orada qeyd edilən şəriət hökmləri ilə tanış olmalarının çətin olduğunu nəzərə alaraq istədim ki, bu kiçik risalədə hər bir müsəlmana bilməsi vacib olan və özü barədə cahil qalması icazəli olmayan ən mühüm dini bilgiləri iyirmi dərs içərisində toplayım. Bu dərslər etiqad, ibadət və əxlaqi məsələlər ilə əlaqəli ən mühüm mövzuları özündə ehtiva edir. Həmin

---

[1] Tabiinlər: səhabələrdən sonra gələn nəsil.

[2] Yəni dində söz sahibi olan böyük İslam alimləri.

[3] Fiqh dedikdə İslamın hüquq sistemi: ibadətlər ilə əlaqəli və insanların öz aralarındakı davranışlarla: ticari, evlilik, miras və s. məsələr ilə bağlı şəriət hökmləri nəzərdə tutulur.

[4] Dörd məzhəb imamı, əsasən, etiqadi məsələlər üzərində ittifaq etmişlər. Onların hamısı Peyğəmbərin ﷺ və onun əshabının ﷺ üzərində olduğu əsaslara etiqad etmişdir. Lakin fiqhə gəldikdə isə bu mövzuda təməl sayılmayacaq bəzi məsələlərdə ixtilaf etmişlər. Bu ixtilaf da onların şəxsi ictihadlarından doğan bir ixtilafdır. Bu cür hallarda bizim üzərimizə vacib olan isə Uca Allahın Öz Kitabında bizə vəsiyyət etdiyini nümunə götürərək və elə həmin imamların da bizdən istədiklərini həyata keçirərək Quran və sünnətdən (yəni Peyğəmbər ﷺ hədislərindən) olan şəriət dəlillərinə tabe olmaqdır. Belə ki, Uca Allah buyurur: *"Allaha və Peyğəmbərə itaət edin ki, bəlkə, sizə rəhm olunsun"* (Ali-İmran: 132). Həmçinin məzhəb imamları belə demişlər: "Hədis səhihdirsə, elə o mənim məzhəbimdir".

dərslərin imkan daxilində son dərəcə müxtəsər olmasına diqqət yetirdim. Uca Allahdan bunun faydalı olmasını diləyirəm.

**✍ Kitabın müəllifi:**
**Dr. Yusif ibn Əbdürrəhman ər-Rəşid**

❁ ❁ ❁

## ☙ Birinci dərs ❧

# QURANİ-KƏRİM

***Quran:*** Muhəmməd peyğəmbərə ﷺ nazil edilmiş, müshəflərdə[1] yazılmış, hər dönəmdə çoxsaylı ravilər yolu ilə nəsildən-nəslə ötürülərək bizə nəql edilmiş, tilavəti ilə ibadət olunan və möcüzə sayılan Uca Allahın kəlamıdır.

O, mütləq bir şəkildə Uca Allah tərəfindən nazil edilmiş kitabların ən əzəmətlisidir. Onda əvvəlki qövmlərin və sonrakıların xəbərləri, şəriətin əhkamları, dinin əsasını təşkil edən etiqadi məsələlər, qissələr və ibrətlər vardır. Peyğəmbər ﷺ belə demişdir: *"Sizlərin ən xeyirli olanı Quranı öyrənən və onu öyrədəndir"* (Buxari). Hər bir müsəlmana onu öyrənməsi, daima onu oxuması, əzbərləməsi, ayələri üzərində tədəbbür etməsi və ona əməl edib, onun hökmünə əsasən hərəkət etməsi vacibdir.

❁ ❁ ❁

[1] Müshəf, yəni Quran kitabı, yaxud Quranın kitab halında olan forması.

## əl-Fatihə surəsi

﴿بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ ١ ٱلۡحَمۡدُ لِلَّهِ رَبِّ ٱلۡعَٰلَمِينَ ٢ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ ٣
مَٰلِكِ يَوۡمِ ٱلدِّينِ ٤ إِيَّاكَ نَعۡبُدُ وَإِيَّاكَ نَسۡتَعِينُ ٥ ٱهۡدِنَا
ٱلصِّرَٰطَ ٱلۡمُسۡتَقِيمَ ٦ صِرَٰطَ ٱلَّذِينَ أَنۡعَمۡتَ عَلَيۡهِمۡ غَيۡرِ ٱلۡمَغۡضُوبِ عَلَيۡهِمۡ وَلَا
ٱلضَّآلِّينَ ٧﴾

***<u>Əl-Fatihə surəsinin oxunuşu</u>*** (üzərinə toxun və dinlə!)

***Mənası:*** *“Mərhəmətli və Rəhmli Allahın adı ilə! Həmd aləmlərin Rəbbi olan Allaha, Mərhəmətli və Rəhmliyə, Din gününün Hökmdarına məxsusdur. Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik. Bizi doğru yola yönəlt, nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə düçar olmuşların və azmışların yoluna deyil!”*

• ***“Mərhəmətli”***, yəni *“ər-Rəhman”*: Uca Allahın adlarından biridir və mənası “rəhməti hər şeyi əhatə edən” deməkdir.

***“Rəhmli”***, yəni *“ər-Rəhim”*: Uca Allahın adlarından biridir və mənası “məhz mömin bəndələrə qarşı mərhəmətli olan” deməkdir.

***“Allahın adı ilə”***, yəni kamillik vəsfi sayılan ilahlıq vəsfləri ilə vəsflənmiş və ibadət olunmağa layiq yeganə məbud olan Allahın adı ilə başlayıram.

• ***“Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur”.*** Həmd – sevərək, təzim edərək, hörmət və ehtiramla Allahın nemətlərini dilə gətirməkdir. Uca Allah ən kamil vəsflər ilə özünü vəsf etmiş və bunu bizə xəbər vermişdir. Bu da Allahın öz-özünü səna etdiyi bir tərif formasıdır. Bununla da O Öz bəndələrinə Ona həmd etmələrini əmr etmiş olur. Nöqsanlardan münəzzəh olan Allah bütün varlıqları yoxdan yaradan, onların işlərini idarə edən və həmdü-sənaya, yəni ən ali təriflərə layiq olandır.

• ***“Mərhəmətli və Rəhmliyə, Din gününün Hökmdarına...”*** Yəni Qiyamət günündə ağalıq və idarəçilik edən yalnız Odur.

• “***Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik”.*** Yəni biz Allahdan başqasına ibadət etmir və Ondan başqasından da yardım istəmirik. Allahım, biz ibadəti yalnız və yalnız Sənə məxsus edirik, dini və dünyəvi bütün işlərimizdə yalnız Səndən kömək istəyirik. Bütün işlər Sənin əlindədir. Bu ayə bizə göstərir ki, bəndəyə ibadətin növlərindən hər hansısa bir şeyi Allahdan qeyrisinə yönəltməsi icazəli deyildir.

• ***“Bizi doğru yola yönəlt!”*** Yəni doğru yola yönəlməyimiz üçün bizə yol göstər, istiqamət ver, müvəffəq et və Səninlə görüşəcəyimiz günə qədər bizi bu yol üzərində sabitqədəm et. Doğru yol isə məhz İslam dinidir. Bu dua qula ən faydalı olan və ən əzəmətli dualardan biridir.

• ***“Nemət bəxş etdiyin şəxslərin yoluna!”*** Yəni bizi hidayət verdiyin və düzgün istiqamət bəxş etdiyin peyğəmbərlərin, sadiq qullarının, şəhidlərin və əməlisalehlərin yoluna yönəlt.

• ***“Qəzəbə düçar olmuşların və azmışların yoluna deyil!”*** Yəni bizi qəzəbləndiyin kimsələrin yolu ilə gedənlərdən etmə, hansılar ki haqqı bildilər, lakin ona əməl etmədilər. Bunlar yəhudilər və onların mislində olanlardır. Bizi həmçinin azmışların yolu ilə gedənlərdən də etmə, hansılar ki Allaha ibadət edirdilər, lakin onların bu ibadətləri elm və hidayət üzərində deyildi. Elə buna görə də haqq yoldan azdılar. Bunlar isə nəsranilər və onların mislində olanlardır.

Onu da qeyd edək ki, bu surə Qurani-Kərimdə ən əzəmətli surədir.

# əl-İxlas surəsi

﴿قُلۡ هُوَ ٱللَّهُ أَحَدٌ ۝١ ٱللَّهُ ٱلصَّمَدُ ۝٢ لَمۡ يَلِدۡ وَلَمۡ يُولَدۡ ۝٣ وَلَمۡ يَكُن لَّهُۥ كُفُوًا أَحَدُۢ ۝٤﴾

***Əl-İxlas surəsinin oxunuşu*** (üzərinə toxun və dinlə!)

***Mənası:*** *“De: O Allah Təkdir! Allah Ehtiyacsızdır. Doğmamış və doğulmamışdır. Onun heç bir bənzəri də yoxdur”.*

- ***“De!..”*** – Bu xitabı ilə Uca Allah, ilk növbədə, öz Peyğəmbərinə ﷺ, daha sonra da onun ümmətinə belə demələrini əmr edir: ***“O Allah Təkdir!”*** Yəni ibadət olunmağa layiq olan yalnız Odur və Ondan başqasına ibadət olunmaz.
- ***“Allah Ehtiyacsızdır”.*** Yəni Onun heç kəsə ehtiyacı yoxdur, əksinə, O bütün ehtiyacların qarşılanması və bütün istəklərin həyata keçirilməsi üçün özünə yönəldilməyə layiq olan yeganə zatdır.
- **“*Doğmamış və doğulmamışdır*”.** Yəni Onun övladı, valideyni və yoldaşı yoxdur. Çünki Onun heç nəyə ehtiyacı yoxdur.
- ***“Onun heç bir bənzəri də yoxdur”.*** Yəni bütün naqisliklərdən bəri olan Uca və Mübarək Allahın feillərində, ad və vəsflərində heç bir oxşarı, bənzəri, tayı və bərabəri yoxdur.

## əl-Fələq surəsi

﴿قُلۡ أَعُوذُ بِرَبِّ ٱلۡفَلَقِ ۝١ مِن شَرِّ مَا خَلَقَ ۝٢ وَمِن شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ ۝٣
وَمِن شَرِّ ٱلنَّفَّٰثَٰتِ فِي ٱلۡعُقَدِ ۝٤ وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ ۝٥﴾

***Əl-Fələq surəsinin oxunuşu*** (üzərinə toxun və dinlə!)

***Mənası:*** *"De: Sığınıram sübhün Rəbbinə! Məxluqatının şərindən, çökən zülmətin şərindən, düyünlərə üfürən qadınların şərindən və həsəd aparan zaman paxılın şərindən!"*

- ***"De!.."*** – Bu xitabı ilə Uca Allah, ilk növbədə, öz Peyğəmbərinə ﷺ, daha sonra da onun ümmətinə belə deməlrini əmr edir: ***"Sığınıram sübhün Rəbbinə!"*** Yəni sübh çağının Rəbbi olan Uca Allaha pənah aparıram.
- **"*Məxluqatının şərindən*".** Yəni bütün yaradılmışların pisliklərindən və əziyyətlərindən Uca Allaha sığınıram.
- **"*Çökən zülmətin şərindən*".** Yəni zülmətə bürünməkdə olan gecənin və o gecədə olan bütün xətərli şeylərin şərindən Uca Allaha sığınıram.
- ***"Düyünlərə üfürən qadınların şərindən".*** Yəni bütün sehrbazların və sehr-cadu etmək niyyəti ilə düyünlərə üfürən bütün cadugər qadınların şərindən Uca Allaha sığınıram.
- **"*Həsəd aparan zaman paxılın şərindən*".** Yəni Allahın insanlara verdiyi nemətinə qarşı həsəd aparan və o nemətin aradan qalxmasını istəyən hər bir paxılın şərindən Uca Allaha sığınıram.

## ən-Nəs surəsi

﴿قُلۡ أَعُوذُ بِرَبِّ ٱلنَّاسِ ١ مَلِكِ ٱلنَّاسِ ٢ إِلَٰهِ ٱلنَّاسِ ٣ مِن شَرِّ ٱلۡوَسۡوَاسِ
ٱلۡخَنَّاسِ ٤ ٱلَّذِي يُوَسۡوِسُ فِي صُدُورِ ٱلنَّاسِ ٥ مِنَ ٱلۡجِنَّةِ وَٱلنَّاسِ ٦﴾

***Ən-Nəs surəsinin oxunuşu*** (üzərinə toxun və dinlə!)

***Mənası:*** *“De: Sığınıram insanların Rəbbinə, insanların Hökmdarına, insanların Məbuduna! Vəsvəsə verən, qaçıb gizlənən şeytanın şərindən. O şeytan ki insanların ürəklərinə vəsvəsə salır, cinlərdən də olur, insanlardan da!”*

- ***“De!..”*** – Bu xitabı ilə Uca Allah, ilk növbədə, öz Peyğəmbərinə ﷺ, daha sonra da onun ümmətinə belə deməsini əmr edir: ***“Sığınıram insanların Rəbbinə!”*** Yəni pənah aparıram insanların Rəbbinə.
- ***“İnsanların Hökmdarına!”*** Yəni insanların bütün işlərini idarə edən və onlara heç bir ehtiyacı olmayan Allaha pənah aparıram.
- ***“İnsanların məbuduna!”*** Yəni insanların ibadət etdikləri və Özündən başqa ibadət olunmağa heç kəsin layiq olmadığı yeganə haqq məbud Allaha pənah aparıram.
- ***“Vəsvəsə verən, qaçıb gizlənən şeytanın şərindən”.*** Yəni insan qəflətdə olduqda ona vəsvəsə verən, lakin Allahın adı zikr ediləndə qaçıb gizlənən şeytanın bütün şər və xətərindən Allaha sığınıram.
- ***“O şeytan ki insanların ürəklərinə vəsvəsə salır”.*** Yəni o şeytan ki insanların qəlblərinə şübhə və şər toxumlarını səpir.
- ***“Cinlərdən də olur, insanlardan da!”*** Yəni o şeytan cinlərdən də olur, insanlardan da.

# Ayətül-Kürsi

﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡحَيُّ ٱلۡقَيُّومُۚ لَا تَأۡخُذُهُۥ سِنَةٞ وَلَا نَوۡمٞۚ لَّهُۥ مَا فِي ٱلسَّمَٰوَٰتِ
وَمَا فِي ٱلۡأَرۡضِۗ مَن ذَا ٱلَّذِي يَشۡفَعُ عِندَهُۥٓ إِلَّا بِإِذۡنِهِۦۚ يَعۡلَمُ مَا بَيۡنَ أَيۡدِيهِمۡ وَمَا
خَلۡفَهُمۡۖ وَلَا يُحِيطُونَ بِشَيۡءٖ مِّنۡ عِلۡمِهِۦٓ إِلَّا بِمَا شَآءَۚ وَسِعَ كُرۡسِيُّهُ ٱلسَّمَٰوَٰتِ
وَٱلۡأَرۡضَۖ وَلَا يَـُٔودُهُۥ حِفۡظُهُمَاۚ وَهُوَ ٱلۡعَلِيُّ ٱلۡعَظِيمُ﴾

***<u>Ayətül-Kürsinin oxunuşu</u>*** (üzərinə toxun və dinlə!)

***Mənası:*** *“Allah! Ondan başqa haqq məbud yoxdur, əbədi Yaşayandır, bütün məxluqatın Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları mühafizə etmək Ona ağır gəlmir. O, Ucadır, Əzəmətlidir”* (əl-Bəqərə surəsi, 255-ci ayə).

• ***“Allah! Ondan başqa haqq məbud yoxdur”.*** Yəni Allahdan başqa ilahlıq vəsfinə və ibadətə layiq olan məbud yoxdur.

• ***“Əbədi Yaşayandır”.*** Yəni şəninə layiq olan bir şəkildə ən kamil həyat məfhumu yalnız Ona məxsusdur. O, əbədi Yaşayandır, ölməzdir.

• ***“Bütün məxluqatın Qəyyumudur”.*** Yəni hər şeyi ayaqda tutan və hər şeyi idarə edən, Özü isə heç kəsə ehtiyacı olmayandır.

• ***“Onu nə mürgü, nə də yuxu tutar”.*** Yəni Uca Allah bəşərə xas olan bu cür naqis sifətlərdən bəri və Ucadır.

• ***“Göylərdə və yerdə nə varsa, Ona məxsusdur”.*** Yəni göylərdə və yerdə olan hər şey Uca Allahın mülküdür.

• ***“Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər?”*** Yəni Allahın izni olmadan (Qiyamət günü) Onun yanında heç kəs şəfaət edə bilməyəcəkdir.

• ***“O, məxluqatın gələcəyini və keçmişini bilir”.*** Yəni Allahın elmi qeybi və aşkar olanı, keçmişdə baş vermiş və gələcəkdə baş verəcək olan hər bir aşkar və gizlin işləri əhatə etmişdir.

• ***“Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər”.*** Yəni Uca Allah öyrətmədikcə və bildirmədikcə Onun məxluqatından heç kəs Onun elmindən bir şey əldə edə bilməz.

• ***“Onun Kürsüsü göyləri və yeri əhatə edir”.*** İbn Abbas ﵄ demişdir: *“Kürsü Uca Allahın iki ayağının qoyulduğu yerdir”* (Hakim). Həmin bu Kürsü göyləri və yeri əhatə etmişdir. Bu da onun böyüklüyünə dəlalət edir. Bu Kürsünün necəliyini isə Uca Allahdan başqa heç kəs bilmir.

• ***“Bunları mühafizə etmək Ona ağır gəlmir”.*** Yəni göyləri və yeri qoruyub saxlamaq Allah üçün çətin deyildir.

• ***“O, Ucadır, Əzəmətlidir”.*** Yəni O Öz zatı və vəsfləri ilə bütün yaratdıqlarından Uca və Özündə bütün böyüklük və əzəmətlilik vəsflərini ehtiva edəndir.

Bu ayə (yəni Ayətül-Kürsi) Qurani-Kərimdə ən əzəmətli ayə sayılır. Onu da qeyd edək ki, Ayətül-Kürsini, əl-İxlas, əl-Fələq və ən-Nəs surələrini gündəlik beş vaxt namazlardan sonra, yatmamışdan əvvəl, həmçinin səhər və axşam oxumaq müstəhəbdir və Uca Allahın öz bəndəsini xətər və bəladan qoruması üçün bir səbəbdir.

## ༺ İkinci dərs ༻

# PEYĞƏMBƏRİN ﷺ SÜNNƏTİ

Sünnət dedikdə Peyğəmbərin ﷺ kəlamları, feilləri, iqrar etdiyi şeylər, onun əxlaqına, həmçinin zahiri görüşünə dair nəql olunan hədislər nəzərdə tutulur.

Hər bir müsəlmana Peyğəmbərə ﷺ tabe olması, ona itaət etməsi və hər dediyi kəlamında onu təsdiqləməsi vacibdir. Çünki o, Uca Allah tərəfindən qorunan və Onun dediklərini təbliğ edən biridir. Peyğəmbərə ﷺ tabeçilik Allah tərəfindən həmin bəndənin sevildiyinin və onun düzgün bir imana sahib olduğunun göstəricisidir. Belə ki, Uca Allah buyurur: *"De: Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir"* (Ali-İmran: 31).

***Peyğəmbərdən ﷺ nəql olunmuş və özündə böyük fayda və ibrətlər ehtiva edən hədislərdən bəzi nümunələr:***

**1.** Ömər ibn əl-Xəttab ؓ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *"Həqiqətən də, əməllər niyyətlərə bağlıdır. Hər bir insana onun niyyət etdiyi verilər. Kimin hicrəti Allaha və Onun rəsuluna ﷺ tərəf olarsa, onun hicrəti Allaha və Rəsuluna ﷺ tərəf olar. Kimin də hicrəti dünyəvi mənfəət əldə etmək və ya hər hansı bir qadınla evlənməkdirsə, onun hicrəti də elə bu şeylərə tərəf olar"* (Buxari və Müslim).

Peyğəmbərimiz ﷺ bu hədisdə bizlərə bəyan edir ki, Allaha ibadət qəsdi ilə deyilən hər bir söz, yaxud edilən hər bir əməl qəlbin niyyəti olmadıqca keçərli sayıla bilməz. Yəni hər hansı bir adi əməl ilə ibadət sayılan başqa bir əməli, o cümlədən də vacib olan bir ibadətlə vacib olmayan digər bir ibadəti bir-birindən fərqləndirmək üçün mütləq niyyətə ehtiyac vardır. Həmçinin ibadətlərdə məqsəd məhz Uca Allaha yaxınlaşmaq olmalıdır. Çünki bir kəs əməl edər, lakin əməlində məqsədi və niyyəti Uca Allaha yaxınlaşmaq olmazsa, onun əməli qəbul olunmaz.

Bütün bunlara əsasən, bir kəs əməl edər və öz əməlində niyyəti yalnız Uca Allahın razılığını əldə etmək və ixlasla Allaha ibadət etmək olarsa, Rəbbi tərəfindən onun üçün əcr və savab vardır. Yox, əgər öz əməlində və ibadətində niyyəti hər hansı bir dünya mənfəətini əldə etmək, yaxud öz əməlini insanlara nümayiş etdirmək və bu kimi pis məqsədlər olarsa, onun əməli boşa gedər, halı isə Allaha qalmışdır.

**2.** Əbu Hureyrə ﷜ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *"İnsanın özünə aid olmayan işləri tərk etməsi onun İslamının gözəlliyindəndir"* (Tirmizi və İbn Macə).

Peyğəmbərimiz ﷺ bu hədisdə bizlərə bəyan edir ki, insanın özünə aid olmayan, həmçinin dünya və Axirəti üçün ona heç bir faydası olmayan işləri tərk etməsi onun dininin kamilliyindən və gözəlliyindəndir. Müsəlman bu cür faydasız işlərlə məşğul olmamalı və bu cür şeylər barədə danışmamalıdır. Əksinə, o yalnız özünə aid olan və ona fayda verən işlərlə məşğul olmalıdır.

**3.** Noman ibn Bəşir ﷜ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *"Həqiqətən, halal da bəllidir, haram da. Onların arasında şübhəli şeylər vardır ki, insanların çoxu bunu bilməz. Kim şübhəli şeylərdən çəkinərsə, dinini və namusunu qorumuş olar. Kim ki şübhəli şeylərə qədəm qoyarsa, harama düşmüş sayılar. Belə birisinin halı qoruğun ətrafında sürüsünü otaran çobana bənzəyir ki, az qala qoruğa girsin. Bilin ki, hər bir hökmdarın qoruğu vardır. Allahın qoruğu isə Onun qoyduğu qadağalardır"* (Buxari və Müslim).

Peyğəmbərimiz ﷺ bu hədisdə bizlərə bəyan edir ki, halal olan şeylər bəllidir və açıq-aydındır. Qəlb belə şeylərdə tam rahatdır və heç bir şübhəyə düşməz. Həmçinin uzaq duran və çəkinən kəslər üçün də haramlar bəllidir və açıq-aydındır. Lakin bunların arasında halal və haramlığı tam bəlli olmayan şübhəli şeylər vardır ki, bu cür şeylərin hökmü bir çox insana gizli qalar və həmin şeyin halal, yaxud haram olduğunu bilməzlər (təbii ki, belə hallarda onlara vacib olan şübhənin aradan qalxması üçün bu kimi şeyləri bilənlərdən – elm əhlindən soruşmaqdır. Hətta araşdırdıqdan sonra da, əgər şübhə aradan qalxmazsa, o zaman bilməlidir ki, Peyğəmbərin ﷺ hədisdə nəzərdə tutduğu "şübhəli şeylər" məhz bu

qəbildən olan şeylərdir). Əgər müsəlman bu kimi şeylərdən çəkinərsə, öz dinini və namusunu qorumuş, habelə haramlardan uzaq durmuş olar. Yox, əgər bu kimi şeylərə yaxın durarsa, o zaman harama düşməsi üçün səbəbiyyət yaratmış olar. Bizə vacib olan isə Allahdan qorxmağımız, Onun əmr etdiklərini yerinə yetirib, qadağan etdiklərindən çəkinməyimiz və özümüzü haramdan qorumaq üçün şübhəli şeylərdən uzaq durmağımızdır.

**4.** Əbu Bəkrin ﵁ qızı Aişə anamız Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *"Kim bizim bu işimizə ondan olmayan bir yenilik gətirərsə, o rədd edilər"* (Buxari və Müslim).

Peyğəmbərimiz ﷺ bu hədisdə bizlərə bəyan edir ki, hər hansı bir müsəlman dinə Quran və sünnətdə əsli və icazəsi olmayan bir yenilik gətirərsə, istər bu yenilik sözdən, yaxud əməldən ibarət olsun, fərq etməz, həmin yenilik batil hesab edilir və qəbulolunmazdır. Heç bir müsəlmana Allahın əmr etmədiyi və Peyğəmbərinin də ﷺ öyrətmədiyi bir formada Rəbbinə ibadət etməsi icazəli deyil və bu, qəti şəkildə qadağandır. Belə bir şey Allahın dinində bidət (yəni sonradan ortaya çıxan qondarma ibadət forması) hesab edilir və bununla da Uca Allahın bu kəlamı təkzib edilmiş sayılır: *"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim"* (əl-Maidə: 3). Çünki Allahın dininə hər hansı bir yenilik gətirən şəxs bu əməli ilə iddia etmiş olur ki, din naqisdir, Uca Allah Öz dinini kamil etməyib (və ortaya atılan bu yenilik həmin naqisliyi aradan qaldırmaq və həmin boşluğu doldurmaq üçündür).

❁ ❁ ❁

## ✤ Üçüncü dərs ✤

# ÜÇ ƏSAS TƏMƏL

İslam dini üç əsas təməl üzərində qurulmuşdur. Həmin əsasları öyrənmək və onların tələblərinə uyğun hərəkət etmək bizim borcumuzdur. Həmin əsaslar Allahı, dini və Peyğəmbəri ﷺ tanımaqdan ibarətdir.

❖ **Birinci təməl: Uca Allahı tanımaq**

Bu mövzu ilə əlaqədar bilməyimiz vacib olan şeylər isə aşağıdakılardan ibarətdir:

**1.** Bizim Rəbbimiz göyləri, yeri, günəşi, ayı, bütün planetləri, gecəni, gündüzü, insanları və cinləri – bir sözlə, hər şeyi yoxdan var edən, hər şeyi idarə edən və hər şeyin hökmdarı olan Uca Allahdır. Rəbbimiz olan Allah belə buyurur: *"Həqiqətən də, Rəbbiniz göyləri və yeri altı gündə yaradan Allahdır"* (əl-Əraf: 54); *"Allah hər şeyin Xaliqidir. O hər şeyi Qoruyandır"* (əz-Zumər: 62).

**2.** İbadət olunmağa haqqı çatan yeganə məbud heç bir şəriki olmayan Uca Allahdır. O belə demişdir: *"Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə, təqvalı olasız"* (əl-Bəqərə: 21). Elə məhz bu amal üçün də Uca Allah insanları və cinləri xəlq etmişdir. O belə demişdir: *"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım"* (əz-Zəriyət: 56). Allaha qarşı həqiqi ibadət forması isə ibadətin yalnız Ona yönəldilməsi ilə gerçəkləşir. Deməli, Onunla yanaşı heç kəsə ibadət olunmaz. Ona ibadət isə əmrlərini yerinə yetirib qadağan etdiklərindən çəkinməklə olur.

❖ **İkinci təməl: Dini tanımaq**

Bu mövzu ilə əlaqədar bilməyimiz vacib olan şeylər isə aşağıdakılardan ibarətdir:

**1.** Bizim dinimiz İslam dinidir. Bu din Uca Allahın bütün insanlar üçün seçib razı qaldığı bir dindir və heç kəsdən bu dindən başqasını qəbul etməyəcəkdir. Uca Allah belə buyurur: *"Sizin üçün din olaraq İslamı bəyənib seçdim"* (əl-Maidə: 3); *"İslamdan*

*başqa bir din axtaran şəxsdən o din heç vaxt qəbul olunmaz”* (Ali-İmran: 85).

**2.** İslam dini təkallahlıq dinidir. Allaha itaət və qadağalarından həzər etmək üzərində qurulmuş bir dindir. Uca Allah bu barədə belə buyurur: *“Yaxşı işlər görərək özünü Allaha təslim edən şəxsdən din baxımından daha gözəl kim ola bilər?*” (ən-Nisa: 125)

**3.** İslam dini Allah tərəfindən göndərilmiş kamil bir dindir. Heç kəsin bu dinə Quran və sünnətdə olmayan bir yenilik gətirməyə, ona nəyisə əlavə edib ondan nəyisə azaltmağa haqqı yoxdur. Uca Allah belə buyurur: *“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim”* (əl-Maidə: 3).

**4.** İslam dininin beş rüknü vardır. Həmin rüknlər sırasilə aşağıdakılardır:

- Kəlmeyi-şəhadət, yəni “Əşhədu əllə iləhə illallah və əşhədu ənnə Muhəmmədən rəsulullah” şəhadətini dilə gətirmək və ehtiva etdiyi mənaya da etiqad etmək. Mənası: “Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur. Yenə şəhadət edirəm ki, Muhəmməd ﷺ Allahın elçisidir”;
- Namaz qılmaq;
- Zəkat vermək;
- Ramazan orucunu tutmaq;
- Gücü çatan kəslərin Allahın evi Kəbəni həcc etmələri.

**5.** İslam dini xeyir-bərəkət, xoşbəxtlik və səadət dinidir. Uca Allah belə buyurur: *“Xeyr! Kim yaxşı işlər görüb Allaha təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar qəm-qüssə görməzlər”* (əl-Bəqərə: 112).

**6.** İslam dininin üç dərəcəsi, yaxud üç mərhələsi vardır:

• Birinci mərhələ İslam mərhələsidir. İslam dedikdə tövhid (təkallahlılıq etiqadı) ilə Ona təslim olmaq, itaətkarlıq ilə Ona bağlanmaq, şirki və şirk əhlini tərk etmək nəzərdə tutulur.

• İkinci mərhələ iman mərhələsidir. İman dedikdə Allaha, mələklərinə, nazil etdiyi kitablarına, peyğəmbərlərinə, Axirət gününə, qədərin xeyrinə və şərinə iman etmək nəzərdə tutulur. İman – qəlb ilə etiqad etməkdən, həmin etiqadı dil ilə iqrar

etməkdən, qəlbin və zahiri orqanların əməllərindən ibarətdir. Bəndənin imanı Allaha ibadət və itaət ilə artar, asilik ilə azalar.

Quranda və Peyğəmbərin ﷺ hədislərində "İslam" kəlməsi təklikdə işləndikdə həm İslam, həm də iman mənasını ifadə edir. "İman" kəlməsi də belədir. Belə ki, şəriət mətnlərində "iman" ləfzi təklikdə işləndikdə həm İslam, həm də iman mənasını daşıyır. Lakin "İslam" və "iman" ləfzləri yanaşı qeyd edilərsə, o zaman İslam ləfzi ilə zahiri ibadətlər, iman ləfzilə isə daxilə aid olan etiqadi mövzular nəzərdə tutular.

• Üçüncü mərhələ ehsan mərhələsidir. Ehsan dedikdə Uca Allahı görürcəsinə Ona ibadət etməkdir. Sən Onu görməsən də, heç şübhəsiz ki, O səni görür. Muhsin (yəni Ehsan mərhələsinə çatmış bir müsəlman) öz ibadətlərini həm zahirən, həm də batinən tam bir şəkildə həyata keçirmiş, sanki Uca Allahın önündə dururmuş kimi Onun nəzarətini öz üzərində hiss edərək Onu görürcəsinə ibadət edən kəsdir. Bütün bunlar bəndənin qəlbində Rəbbinə qarşı dərin sevgi və məhəbbət yaradır və bəndəni ən ali ehsan mərtəbəsinə ucaldır. Əgər bəndə bu ali mərtəbəyə çata bilməsə, o zaman Rəbbinin onu gördüyünə, ona nəzarət etdiyinə yəqinliklə etiqad edərək ibadətə yönəlir və Rəbbinin onun üzərindəki nəzarətindən həya edir. Bu isə qulun qəlbində Rəbbinə qarşı xof əmələ gətirir və beləcə öz ibadətlərini sahmana salır.

### ❖ Üçüncü təməl: Peyğəmbəri ﷺ tanımaq

Bu mövzu ilə əlaqədar bilməyimiz vacib olan şeylər isə aşağıdakılardan ibarətdir:

**1.** Bizim peyğəmbərimiz Qureyş qəbiləsindən və Haşimi nəslindən olan Əbdülmüttəlibin nəvəsi və Abdullahın oğlu Muhəmməddir ﷺ. O bütün peyğəmbərlərin ən üstün olanı və sonuncusudur.

**2.** Peyğəmbərimiz ﷺ Məkkə şəhərində doğulmuş və orada böyümüşdür. Qırx yaşına çatdıqda Uca Allah onu insanlara peyğəmbər olaraq göndərdi. Beləcə o ﷺ, insanları tək və şəriksiz olan Allaha ibadətə və namaz qılmağa səslədi. Əlli üç yaşına çatdıqda isə Mədinə şəhərinə köçdü. Orada zəkat, oruc, həcc və cihad kimi İslamın digər hökmlərini bəyan etdi. Rəbbinin ona

çatdırmasını əmr etdiyi hər şeyi insanlara bəyan etdikdən sonra altmış üç yaşında Mədinə şəhərində vəfat etdi. Beləcə Uca Allah onunla Öz dinini kamil etdi və üzərimizdə olan din nemətini tamamladı.

**3.** Uca Allah peyğəmbərimiz Muhəmmədi ﷺ İslam dinini öyrətmək, tək Allaha ibadət etməyi əmr etmək və Ondan qeyrisinə ibadətləri tərk etmək, xeyir əməllərə yönəltmək və bütün pisliklərdən çəkindirmək qəsdi ilə insanların və cinlərin hamısına peyğəmbər olaraq göndərmişdi. Peyğəmbərimiz ﷺ də, öz növbəsində, ən kamil və ən gözəl bir şəkildə bu vəzifəni yerinə yetirmişdir. Bu səbəbdən də Uca Allah bütün insanlara xəbər verdiyi hər şeydə onu təsdiqləməyi, ona tabe olmağı, onun izi ilə getməyi və onu sevməyi əmr etmişdir. Allahın ona salamı və xeyir-duası olsun!

## ❧ Dördüncü dərs ☙

# “LƏ İLƏHƏ İLLƏLLƏH” ŞƏHADƏTİ

**1.** “Lə iləhə illallah” şəhadətinin mənası: Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur.

**2.** İbadətin mənası: Allahın sevib razı qaldığı bütün zahiri və batini söz və əməllərdir.

**3.** İbadətin növləri çoxdur. Buna misal olaraq duanı, Allaha təvəkkülü, namaz qılmağı və Allahı zikr etməyi qeyd etmək olar.

- Duanın ibadət olmasının dəlili Uca Allahın bu kəlamıdır: *“Rəbbiniz dedi: Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar zəlil olaraq Cəhənnəmə girəcəklər”* (Ğafir: 60).

- Təvəkkülün ibadət olmasının dəlili Uca Allahın bu kəlamıdır: *“Əgər möminsinizsə, Allaha təvəkkül edin”* (əl-Maidə: 23).

- Namazın ibadət olmasının dəlili Uca Allahın bu kəlamıdır: *“Namaz qılın və müşriklərdən olmayın”* (ər-Rum: 31).

- Zikrin (yəni Allahı yad etmənin) ibadət olmasının dəlili Uca Allahın bu kəlamıdır: *“Siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Məni danmayın”* (əl-Bəqərə: 152).

O cümlədən də ibadətin digər növlərinə dəlalət edən dəlillər mövcuddur.

**4.** İbadətin bütün növləri yalnız Uca Allah üçün edilməlidir. Kim ibadətin hər hansı bir növünü Allahdan qeyrisinə yönəltsə, kafir olmuş olar. Uca Allah belə buyurur: *“Kim Allahla yanaşı, haqqında özünün heç bir dəlili olmadığı başqa bir məbuda ibadət edərsə, onun cəzasını Rəbbi Özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar”* (əl-Muminun: 117). Həmçinin Uca Allah Peyğəmbərinə ﷺ əmr edərək belə demişdir: *“De: Mən yalnız öz Rəbbimə dua edirəm və kimisə Ona şərik qoşmuram”* (əl-Cinn: 20).

**5.** Kim Uca Allaha haqqı ilə ibadət edərsə, böyük bir səadətə, xoşbəxtliyə, dünya və axirətdə gözəl həyata nail olar, Cənnəti qazanaraq Cəhənnəmdən qurtular. Uca Allah belə buyurur: *“Mömin olaraq yaxşı işlər görən kişi və qadınlara (dünya və*

*axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq"* (ən-Nəhl: 97).

## “MUHƏMMƏDUN RƏSULULLAH” ŞƏHADƏTİ

**1.** “Muhəmmədun rəsulullah” (yəni Muhəmməd ﷺ Allahın elçisidir) şəhadəti bizdən xəbər verdiyi şeylərdə onu təsdiqləməyi, əmr etdiyi işlərdə ona tabe olmağı, qadağan etdiklərindən uzaq durmağı və Uca Allaha məhz onun bəyan etdiyi formada ibadət etməyi tələb edir.

**2.** Uca Allah Muhəmmədi ﷺ bütün bəşəriyyətə peyğəmbər olaraq göndərmiş və bütün insanlara ona tabe olmağı əmr etmişdir. Uca Allah buyurur: *“De: Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınıza göndərilmiş peyğəmbərəm”* (əl-Əraf: 158).

**3.** Kim Peyğəmbərə ﷺ itaət edərsə, o, tam bir səadətə və böyük bir qazanca nail olmuş olar. Uca Allah buyurur: *“Allaha və Peyğəmbərə itaət edin ki, bəlkə, sizə rəhm olunsun”* (Ali-İmran: 132); *“Əgər ona itaət etsəniz, doğru yola yönəlmiş olarsınız”* (ən-Nur: 54).

**4.** Kim Peyğəmbərin ﷺ əmrinə müxalif olarsa, şiddətli əzaba layiq olar. Uca Allah buyurur: *“Qoy onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar”* (ən-Nur: 63). Peyğəmbərin ﷺ verdiyi hökmlərə təslimiyyət göstərməyən və həmin hökmlər ilə razılaşmayan şəxs iman etmiş sayılmaz. Uca Allah belə buyurur: *“Xeyr! Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam təslim olmayınca iman gətirmiş olmazlar”* (ən-Nisa: 65).

**5.** Məxluqatın ən üstün olanları Allahın nəbiləri və elçiləridir. Onların içərisində ən əfzəl olanı isə bizim peyğəmbərimiz Muhəmməddir ﷺ. Peyğəmbərlərdən sonra insanların ən üstün olanları Peyğəmbərimizin əshabı, onun pak əhli-beyti və möminlərin anaları sayılan zövcələridir. Allah onların hamısından razı olsun! Səhabələr arasında ən üstün olanı isə sırasilə Əbu Bəkr, Ömər ibn əl-Xəttab, Osman ibn Əffan və Əli ibn Əbu Talibdir.

Bunlardan sonra Cənnətlə müjdələnən on səhabədən yerdə qalanları[1] və sonra isə digər səhabələr gəlir.

Uca Allah onları Öz Peyğəmbəri ﷺ üçün dost seçmişdir. Peyğəmbər ﷺ onları, onlar da Peyğəmbəri ﷺ sevdilər, öz həyatlarını onun müdafiəsinə həsr etdilər və İslam dinini insanlara çatdırdılar. Onların hamısını sevmək və onları yalnız xeyirlə yad etmək bizim boynumuzun borcudur. Onları sevmək dindən, imandan və xeyir əməldən, onlara nifrət etmək isə küfr, nifaq və asilikdən hesab edilir. Onlardan heç kəsin məsum – xətasız olduğunu iddia etmirik. İnsanlar içərisində peyğəmbərlərdən başqa heç kəs məsum deyildir.

❁ ❁ ❁

[1] Səid ibn Zeyd ibn Amr ؓ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *"On nəfər Cənnətdədir: Əbu Bəkr Cənnətdədir, Ömər Cənnətdədir, Osman, Əli, Zubeyr, Talha, Əbdürrəhman (ibn Ouf), Əbu Ubeydə (ibnul-Cərrah), Səd ibn Əbu Vaqqas Cənnətdədirlər"*. Səid ibn Zeyd doqquz nəfərin adını qeyd edəndən sonra susdu. Ondan onuncunun adını soruşanda belə cavab verdi: *"Səid ibn Zeyd Cənnətdədir"* (Tirmizi: 3748, hədis səhihdir).

## ❧ Beşinci dərs ☙

# TÖVHİD VƏ ONUN NÖVLƏRİ

***Tövhid:*** Uca Allahı rübubiyyətində, uluhiyyətində, ad və vəsflərində tək qəbul etməkdir.

***Tövhidin növləri:*** Tövhidin üç növü vardır – rübubiyyət tövhidi, uluhiyyət tövhidi, ad və sifətlər tövhidi.

**1. Rübubiyyət tövhidi:** Uca Allahı yaratmaq, ruzi vermək, idarə etmək, diriltmək və öldürmək, zərər və xeyir vermək kimi feillərində tək qəbul etmək, yəni şəriksiz olduğuna etiqad etməkdir.

Uca Allahdan başqa yaradan yoxdur. O bu barədə belə buyurur: *“Allah hər şeyin Xaliqidir”* (əz-Zumər: 62).

Uca Allahdan başqa ruzi verən yoxdur. O bu barədə belə buyurur: *“Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin”* (Hud: 6).

Uca Allahdan başqa öldürən və dirildən yoxdur. O bu barədə belə buyurur: *“O, həm dirildir, həm də öldürür. Siz yalnız Ona qaytarılacaqsınız”* (Yunus: 56).

Peyğəmbərin ﷺ zamanında yaşayan kafirlər tövhidin bu növünü ümumi bir şəkildə qəbul edirdilər, buna baxmayaraq, bu onların İslama daxil olmaları üçün kifayət etmədi. Uca Allah həmin müşriklər barədə belə buyurur: *“Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, onlar mütləq: "Allah!"– deyəcəklər”* (Loğman: 25). Yəni onlar yaradanın Allah olduğunu etiraf edirdilər, lakin buna baxmayaraq, müsəlman sayılmırdılar.

**2. Uluhiyyət tövhidi:** Uca Allahı əmr etdiyi ibadətlərdə tək tutmaq və ibadətin bütün növlərini tək və şəriksiz olan Allaha sərf etməkdir.

Yuxarıda da qeyd etdiyimiz kimi, ibadət – Allahın sevib razı qaldığı bütün zahiri və batini söz və əməllərdir.

Dua etmək, and içmək, xof, təvəkkül, mədət ummaq, pənah aparmaq, qurban kəsmək və s. əməllər ibadətin növləri sayılır. Bu kimi əməlləri Allahdan qeyrisi üçün etmək icazəli deyildir. Kim bu cür əməllərdən hər hansı birini Allahdan qeyrisi üçün edərsə, kafir olar. Belə haldan Allaha sığınırıq!

Biz Allahdan başqasına dua etmərik. Uca Allah buyurur: *"Şübhəsiz ki, məscidlər Allahındır. Allahdan başqa heç kəsə dua etməyin"* (əl-Cinn: 18).

Biz Allahdan başqasına and içmərik. Abdullah İbn Ömər ﵄ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *"Kim Allahdan qeyrisinə and içərsə, küfr, yaxud şirk etmiş olar"* (Əbu Davud və Tirmizi).

Təzim və ibadət xofu ilə biz yalnız Allahdan qorxarıq. Uca Allah buyurur: *"O şeytan, sadəcə, sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan deyil, yalnız Məndən qorxun"* (Ali-İmran: 175).

Biz Allahdan qeyrisinə təvəkkül etmərik. Uca Allah buyurur: *"Əgər möminsinizsə, Allaha təvəkkül edin"* (əl-Maidə: 23).

Biz Allahdan başqasından yardım diləmərik. Uca Allah buyurur: *"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik"* (əl-Fatihə: 5).

Biz Allahdan qeyrisinə sığınmarıq. Uca Allah buyurur: *"De: Sığınıram insanların Rəbbinə"* (ən-Nəs: 1).

Biz Allahdan başqası üçün qurban kəsmərik. Uca Allah buyurur: *"De: Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm"* (əl-Ənam: 162-163). Ayədə keçən "ən-nusuk" kəlməsi qurban kəsmək mənasındadır.

Peyğəmbərlər öz qövmlərinə tövhidin bu növü ilə gəlmiş və insanları məhz tövhidin bu növünə çağırmışlar. Uca Allah buyurur: *"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun", – deyə elçi göndərdik"* (ən-Nəhl: 36).

Həm keçmişdə, həm də indiki zamanda yaşayan kafirlərin inkar etdikləri və qarşı çıxdıqları tövhidin məhz bu növüdür. Necə

ki Uca Allah onların dili ilə belə demişdir: *“O bütün məbudları bir məbudmu etdi? Həqiqətən, bu, əcaib bir şeydir”* (Sad: 5).

**3. Ad və sifətlər tövhidi:** Uca Allahın Qurani-Kərimdə Özü Özünü adlandırdığı isimlərinə, yaxud Özünü vəsf etdiyi sifətlərinə, o cümlədən də Peyğəmbərin ﷺ səhih hədislərdə Rəbbi barədə bizə xəbər verdiyi ad və vəsflərinə iman etməkdir.

Biz Uca Allahın Quran və sünnətdə varid olan bütün ad və sifətlərinə təşbihə düşmədən, keyfiyyət vermədən, inkar, yaxud da təhrif etmədən Onun şəninə layiq bir şəkildə və (məcazi olaraq deyil) həqiqət olaraq iman edirik.

Yəni biz Allahın ad və sifətlərinə bəşərə məlum olan səviyyədə müəyyən bir keyfiyyət vermirik. Bəli, Onun ad və sifətlərinin bir keyfiyyəti vardır, lakin bunu Allahdan başqa heç kəs bilməz. Həmçinin Onu məxluqatından heç kəsə bənzətmir və Allah barədə “Onun vəsfi məxluqatından kiminsə vəsfi kimidir” demirik. O cümlədən də Onun ad və sifətlərini inkar etmir, Allahın və Peyğəmbərinin ﷺ nəzərdə tutduğu mənanı dəyişərək təhrif etmirik. Əksinə, bütün bunlara elə Onun şəninə layiq formada və həqiqət üzrə iman edirik.

Uca Allahın adları çoxdur. “Ər-Rəhman” (mərhəmətli), “əs-Səmi” (eşidən), “əl-Basir” (görən), “əl-Əziz” (izzətli), “əl-Həkim” (hikmətli) və bu kimi adları buna misal göstərmək olar. Allahın adlarından hər bir adın möminin qəlbində qulluq və mutilik izi və təsiri vardır. Belə ki, kim Uca Allahın bəndələrinə yaxın olduğunu və onların dualarına cavab verdiyini bilərsə, öz dualarında yalnız və yalnız Ona yönələr. Kim də Uca Allahın mərhəmətli, rəhmli, qullarına qarşı lütfkar olduğunu və onları sevdiyini bilərsə, bu onun Allahı sevməsinə və Ona doğru yönələn məhəbbətinə səbəb olar. Kim Uca Allahın kərim və hər şeyə qadir olduğunu, bəndələrini ruziləndirdiyini bilərsə, bu hal onun hər bir işində Rəbbinə təvəkkül etməsinə səbəb olar. Kim də Uca Allahın izzətli və güclü, əzabının isə şiddətli olduğunu anlayarsa, bu onun Allahdan çəkinməsinə və Onun əzabından qorxmasına, həmçinin Onun əmrlərinə istehza ilə yanaşmamasına səbəb olar.

Uca Allah buyurur: “*Həmd aləmlərin Rəbbi olan Allaha, Mərhəmətli və Rəhmliyə məxsusdur”* (əl-Fatihə: 2-3).

Uca Allah buyurur: *“Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir”* (əş-Şura: 11).

## ❧ Altıncı dərs ☙

# TÖVHİDƏ ZİDD OLAN ANLAYIŞ

❖ **Uca Allahın insanlardan tələb etdiyi ilk şey:** Ona iman etmələri və peyğəmbərlərə, məsələn: İsa Məsihə ﷺ, mələklərə, günəşə və aya, övliyalara, tağutlara[1] və Özündən başqa ibadət olunan digər bütün varlıqlara ibadət etməyi tərk etmələridir. Uca Allah buyurur: *"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun!" – deyə elçi göndərdik"* (ən-Nəhl: 36).

❖ **Tağutları inkar etməyin forması:** Allahdan qeyrisinə olunan bütün ibadət növlərinin batil olduğuna və bunu edənin küfr əməl işlədiyinə etiqad etmək, belə birisinə qəzəb hissi ilə yanaşıb onu tərk etməkdir. Çünki ibadət tək və şəriksiz olan Allahın haqqıdır. Kim ibadətdən nəyisə Allahdan qeyrisi üçün etsə, deməli, Onun haqqına girmiş və beləcə, qəzəbinə səbəb olmuş olar.

❖ **Tövhidə zidd olan əməllər aşağıdakılardır:**

**1. Şirk:** Tövhidin ziddi olan bir məfhumdur. Belə ki, tövhid – ibadəti yalnız Allaha yönəltmək, şirk isə – ibadətin hər hansı bir növünü Allahdan qeyrisi üçün, yaxud Allahla yanaşı, başqa birinə etməkdir. Şirkə misal olaraq Allahdan başqasına dua etməyi, yalnız Allahın verməyə qadir olduğu bir şeyi Ondan qeyrisindən istəməyi, Allahdan başqasına təvəkkül və səcdə etməyi, Ondan qeyrisinə and içməyi, Allahdan başqası üçün qurban kəsib nəzir deməyi, həmçinin Allahdan qeyrisinin qeybi bildiyinə və kainatı idarə etdiyinə etiqad etməyi qeyd etmək olar.

• Onu da qeyd edək ki, şirk ən böyük günah sayılır. Uca Allah bu barədə belə buyurur: *"Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan daha kiçik günahları isə istədiyi kimsəyə əfv edəcəkdir"* (ən-Nisa: 116).

---

[1] Tağut: Allahdan qeyri ibadət olunan və özünün də bu ibadətdən razı qaldığı hər şeydir. Buna misal olaraq Fironu və başqalarını qeyd etmək olar.

• **Şirkin iki növü vardır:**

***Böyük şirk:*** Bəndənin hər hansı bir ibadəti Allahdan başqasına aid etməsi böyük şirkdir. Bu növ şirkə misal, Allahdan başqasına dua etmək, Allahdan qeyrisi, məsələn: cinlər, övliyalar və pirlər üçün qurban kəsmək, Allahdan başqasına, məsələn: peyğəmbərə, namus və qeyrətə, insanın öz canına Allahı təzim edirmiş kimi and içməsidir. Şirkin bu növü insanı İslam dinindən kənar edir və onun bütün saleh əməllərini puça çıxarır. Belə birisi tövbə etmədən ölsə, onun yeri əbədi Cəhənnəmdir və Cənnətə girməsi qeyri-mümkündür. Uca Allah bu barədə belə buyurur: *"Əgər Ona şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı"* (əl-Ənam: 88); *"Həqiqətən də, Allaha şərik qoşan kimsəyə Allah Cənnəti haram etmişdir və onun sığınacağ yeri Cəhənnəm odudur"* (əl-Maidə: 72).

***Kiçik şirk:*** Böyük şirkə səbəb olan hər bir söz və əməl kiçik şirk sayılır. Bu növ şirkə misal, Allahdan başqasına onu Allahı təzim edirmiş kimi deyil, sadəcə olaraq dil vərdişi kimi and içməyi və riyakarlığı misal göstərmək olar. Burada riyakarlıq dedikdə məhz ibadəti insanların nəzəri üçün gözəlləşdirmək nəzərdə tutulur. Həmçinin şəriətin icazəli və məqbul saymadığı bir şeydən, məsələn: hər hansı bir sapdan, yaxud həlqədən (qolbağdan) pisliyi dəf etmək və ya xeyir ummaq niyyəti ilə və onun müstəqil bir şəkildə xeyir vermək və pisliyi dəf etmək gücünə sahib olduğuna etiqad etmədən ondan məhz bir səbəb kimi istifadə etməyi bu növ şirkə misal çəkmək olar. Yox, əgər həmin sapın, yaxud həlqənin müstəqil bir şəkildə və özü-özlüyündə xeyir vermək və pisliyi dəf etmək gücünə sahib olduğuna etiqad edərsə, bu zaman böyük şirk olar. Şirkin bu növü insanı İslam dinindən çıxartmır, lakin böyük günah sayılır və tövhidə xələl gətirir. Kiçik şirk adlanması isə sadəcə olaraq, böyük şirklə müqayisəsinə görədir. Halbuki kiçik şirk küfrdən sonra asiliklər içərisində ən böyük günahlardan hesab edilir və onu işləyəni Axirətdə şiddətli əzab gözləyir.

**2. Küfr:** Küfr söz ilə və ya əməl ilə, yaxud qəlbin etiqadı ilə olur və tövhidi puça çıxarır. Küfr olan söz o sözü deyəni, küfr olan əməl o əməli işləyəni və küfr olan etiqad o etiqadın sahibini İslam dinindən çıxarır. Küfrə misal olaraq İslam dinindən üz döndərməyi, İslam dininə nisbət olunmamağı, Allahı söyməyi,

Allahla, Quran ayəsi, yaxud Peyğəmbər ﷺ ilə istehza etməyi qeyd etmək olar. Uca Allah bu barədə belə buyurur: *“Onlardan nə üçün istehza etdiklərini soruşsan, deyərlər: "Biz, sadəcə, söhbət edib zarafatlaşırdıq." De: Allaha, Onun ayələrinə və Onun Elçisinə istehzamı edirsiniz? Üzr istəməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz”* (ət-Tovbə: 65-66).

**3. Nifaq:** Nifaq tövhidi puça çıxarır. Nifaq dedikdə insanlar üçün imanı və tövhidi izhar etmək, qəlbdə isə küfr və şirki gizlətmək nəzərdə tutulur. Bu növ nifaq “böyük nifaq” adlanır. Belə bir nifaqa sahib olan şəxs Cəhənnəmin ən dərin yerində məskunlaşacaqdır. Uca Allah buyurur: *“İnsanlar arasında elələri də vardır ki, iman etmədikləri halda: "Allaha və Axirət gününə inanırıq" – deyirlər”* (əl-Bəqərə: 8). Yəni dilləri ilə “Allaha iman edirik”, – deyirlər, lakin həqiqətdə mömin deyillər.

❁ ❁ ❁

## ❧ Yeddinci dərs ☙

# İMANIN RÜKNLƏRİ

İmanın altı rüknü – əsası, dayağı vardır. Həmin rüknlər sırasilə aşağıdakılardır:

❖ **Birinci rükn: Allaha iman gətirmək**

Allaha iman etmək – Onun mövcudluğunu qəti surətdə təsdiq etmək, rübubiyyətini, uluhiyyətini, ad və sifətlərini qəbul etməkdir. Deməli, Uca Allaha iman etmək özündə bu dörd məsələni ehtiva edir:

**1. *Allahın mövcudluğuna iman gətirmək:*** Allahın mövcudluğunu etiraf etmək insanın fitrətində vardır. Ona görə də insanların əksəriyyəti bunu etiraf edir. Çünki ağıl sahibi hər kəs anlayır ki, bütün bu yaradılanların mütləq bir yaradanı vardır, O da Uca Allahdır. Bu həqiqəti azsaylı ateistlərdən başqası inkar etmir. Onlar da Uca Allahın mövcudluğunu dillərində inkar etsələr də, əslində, qəlblərində Onun varlığını təsdiq edirlər.

**2. *Allahın rübubiyyətinə iman:*** Yəni Uca Allahın hər şeyin yaradanı, sahibi, idarə edəni, ruzi verəni, eləcə də hər şeyin Onun əlində olmasına və bütün işlərdə Onun heç bir şərikinin və yardımçısının olmadığına iman gətirmək.

**3. *Allahın uluhiyyətinə iman:*** Yəni ibadət edilməyə yalnız Uca Allahın layiq olduğuna etiqad etmək və ibadətin hər hansı bir növünü Ondan qeyrisinə aid etməmək.

**4. *Allahın ad və sifətlərinə iman:*** Uca Allahın Qurani-Kərimdə qeyd edilən və Peyğəmbər ﷺ hədislərində bildirilən ad və vəsfləri vardır. Biz bütün bunlara həqiqi mənası ilə iman etməli və bütün bunları Allaha layiq tərzdə isbat etməliyik. Öncəki səhifələrdə bu barədə məlumat verilmişdir.

❖ **İkinci rükn: Mələklərə iman gətirmək**

Mələklərə iman etmək – onların mövcudluğunu, Cəbrayıl, Mikayıl, İsrafil kimi Quran və sünnətdə qeyd edilən mələk adlarını, yaxud qeyd edilən mələk vəsflərini qəti şəkildə təsdiq etməkdir. Mələklər Allahın bəndələridir. Onların heç bir ilahlıq və rəblik vəsfləri yoxdur. Biz onların Allahın əmri ilə həyata keçirdikləri işlərinə də iman edirik. Yağış yağdırmaqla və ya ruhları qəbz etməklə, yaxud insanların əməllərini qeydə almaqla vəzifəli olan mələkləri buna misal çəkmək olar.

❖ **Üçüncü rükn: Kitablara iman etmək**

Kitablara iman etmək – Allaha məxsus olan kitabların mövcudluğunu qəti surətdə təsdiqləməkdir. O bu kitabları insanlara təbliğ etsinlər deyə, peyğəmbərlərinə nazil etmişdir. Bu kitablar Uca Allahın Özünə layiq olan tərzdə danışdığı həqiqi kəlamıdır. Bu kitabların məzmunu insanları haqqa, nura və xeyrə çağırmaqdan ibarətdir.

Quran və sünnətdə adları çəkilən və bizə məlum olan kitablara adları ilə iman etmək vacibdir. Məsələn: Muhəmməd peyğəmbərə ﷺ nazil olmuş Qurana, Musa peyğəmbərə عليه السلام nazil olmuş Tövrata və İsa peyğəmbərə عليه السلام nazil olmuş İncilə iman etmək kimi.

Biz Qurani-Kərimdə olan məlumatların hamısını, Tövrat və İncil kimi digər kitablarda olan məlumatlardan isə yalnız Quranda və səhih hədislərdə deyilənlərə müvafiq olanını təsdiq edirik.

Hər bir müsəlman qəti şəkildə bilməlidir ki, Uca Allah Qurani-Kərimi təhrif edilməkdən, dəyişikliyə məruz qalmaqdan, ondan nəyinsə azaldılmasından və ona nəyinsə əlavə edilməsindən qoruyub hifz etmişdir. Uca Allah bu barədə belə buyurur: *“Şübhəsiz ki, Zikri (Quranı) biz endirdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq”* (əl-Hicr: 9).

Tövrata və İncilə gəldikdə isə Uca Allahın da xəbər verdiyi kimi, kitab əhli, yəni yəhudi və nəsranilər öz kitablarını dəyişmişdir. Beləcə həmin kitablar nazil olduğu kimi qorunub saxlanılmamışdır. Bu kitabları oxumaq və orda olanlara əməl etmək icazəli deyildir. Çünki bu kitabların hökmləri Qurani-Kərimin nazil olması ilə aradan qalxmışdır.

### ❖ Dördüncü rükn: Peyğəmbərlərə iman etmək

Peyğəmbərlərə iman – Allahın hər bir ümmətə yalnız Ona ibadətə çağıran və şirki qadağan edən elçilər göndərdiyini qəti şəkildə təsdiqləməkdir.

Həmçinin inanmaq lazımdır ki, bütün peyğəmbərlər doğru danışan, əmin, təqva sahibi, doğru yola dəvət edən və haqq üzərində olandır.

Bütün peyğəmbərlərin şəriətləri tək Allaha ibadət etməyi təbliğ etmişdir. Uca Allah buyurur: *“Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun!"– deyə elçi göndərdik”* (ən-Nəhl: 36). Lakin onların şəriət hökmləri halal-haram məsələlərində və digər mövzularda müxtəlif idi.

Onların gətirdikləri şəriətin Allah tərəfindən göndərilmiş haqq olduğuna iman etmək hər bir müsəlmanın borcudur. Hə bir müsəlman Allah və Elçisinin ﷺ Quran və sünnətdə bizə adlarını çəkdiyi peyğəmbərlərin hamısına iman etməlidir. Məsələn: Muhəmməd, Nuh, İbrahim, Musa, İsa və başqaları. Onların hamısına Allahın salamı olsun!

Hər bir müsəlmana vacibdir ki, Muhəmmədin ﷺ bəşəriyyətin ən əfzəli və peyğəmbərlərin də sonuncusu olduğuna iman etsin. Belə ki, ondan sonra heç bir peyğəmbər gəlməyəcəkdir və o hər hansısa bir qövmə deyil, bütün insanlar üçün göndərilmiş bir elçidir. Onun gətirdiyi şəriət ilahi şəriətlərin yekunudur. Hər bir insana ona iman etməsi və ona tebe olması vacibdir. Heç kəsə ondan qeyrisinə tabe olması icazəli deyildir.

### ❖ Beşinci rükn: Axirət gününə iman etmək

Axirət gününə iman – bu günün baş verəcəyini qəti şəkildə təsdiqləməkdir. Həmin gün Qiyamət günüdür. Hər birimiz qəti olaraq iman etməliyik ki, Uca Allah insanları dirildib qəbirlərindən çıxaracaq, onların hamısını bir yerə cəm edəcək, sonra onları hesaba çəkib əməllərinin müqabilini verəcək, daha sonra cənnətliklər Cənnətdə, cəhənnəmliklər isə Cəhənnəmdə qərar tutacaqdır.

Axirət gününə iman gətirmək özündə üç şeyi əhatə edir:

***Birincisi:*** Dirilməyə və həşrə, yəni toplanmaya iman gətirmək. Axirət yolçuluğunun ilk duracaq yeri qəbirdir. Cənnət nemətlərindən qabaq möminlər məhz orada nemət əldə edər, kafirlər isə Cəhənnəm əzabından öncə ilk əzabı orada dadarlar. Qiyamət günü gəldikdə isə Uca Allah insanları dirildəcəkdir. Dirilmə – ölülərin ruhlarının cəsədlərinə qaytarılaraq dirilib qəbirlərindən çıxmaları və aləmlərin Rəbbi üçün qalxmaları, daha sonra isə bir yerə cəmləşmələridir. Uca Allah bu barədə belə buyurur: *"Şübhəsiz ki, bundan sonra siz mütləq öləcəksiniz. Sonra da Qiyamət günü dirildiləcəksiniz"* (əl-Muminun: 15-16).

Həşr barədə Peyğəmbər ﷺ belə demişdir: *"İnsanlar Qiyamət günü həşr olunacaqlar (yəni bir yerə cəm ediləcəklər)"* (Buxari və Müslim).

***İkincisi:*** Haqq-hesab çəkməyə iman gətirmək. Uca Allah insanları dirildib qəbirlərindən çıxarandan və məhşər yerində cəm edəndən sonra dünya həyatında etdiklərinə görə onları hesaba çəkəcək və əməllərinin müqabilini verəcəkdir. Tövhid əhlindən olub Allaha və Peyğəmbərinə ﷺ itaət edənlərin hesabı asan, şirk və günah əhlinin hesabı isə ağır olacaqdır. Uca Allah bu barədə belə buyurur: *"Kimin kitabı sağ əlinə veriləcəksə, o, yüngül sorğu-suala tutulacaq və sevincək öz ailəsinin yanına qayıdacaqdır. Kimin kitabı arxa tərəfindən veriləcəksə, o özünə ölüm diləyəcək və alovlu oda atılacaqdır"* (əl-İnşiqaq: 7-12); *"Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kəsə əsla haqsızlıq edilməyəcəkdir. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gətirib tərəziyə qoyacağıq. Haqq-hesab çəkməyə Biz kifayətik"* (əl-Ənbiya: 47).

***Üçüncüsü:*** Cənnət və Cəhənnəmin varlığına iman etmək. Uca Allah insanları dirildib məhşər yerində cəm edəndən sonra əməllərinə görə onları hesaba çəkəcək və onlara əməllərinin müqabilini verəcəkdir. İman və itaət əhli Cənnətlik, küfr əhli isə Cəhənnəmlik olacaqdır. Allaha iman gətirib Peyğəmbərinə ﷺ tabe olan, lakin bəzi vacibləri tərk etməsi və bəzi haramları işləməsi ilə səhlənkarlığa və günaha yol verən kəslərə gəldikdə isə onlar Allahın istəyi altında olacaqlar: istədiyini əfv edəcək və

cəzalandırmadan birbaşa Cənnətə salacaq, istədiyini də günahlarına görə cəzalandırıb daha sonra Cənnətə girməsinə izn verəcəkdir.

Cənnət daimi nemət bəxş olunan yerdir. Allah oranı Allaha və peyğəmbərlərinə itaət edən təqva sahibləri olan möminlər üçün hazırlamışdır. Orada indiyəcən heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və bəşər övladının ağlına belə gəlməyəcək ləzzətdə və gözəllikdə yemək-içmək, geyim-keçim və sevimli olacaq hər növ nemət vardır. Cənnət əhli daimi nemətlər içərisində əbədi həyata sahib olacaqdır.

Uca Allah Cənnətin vəsfi barədə belə buyurur: *“Rəbbinizin məğfirətinə və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin”* (Ali-İmran: 133); *“Etdikləri əməllərin mükafatı olaraq onlar üçün göz oxşayan nə cür nemətlər saxlandığını heç kəs bilmir”* (əs-Səcdə: 17).

Cəhənnəm isə daimi əzab yeridir. Allah oranı Allaha küfr edən və peyğəmbərlərinə qarşı çıxan kafirlər üçün hazırlamışdır. Orada insanın düşünə bilməyəcəyi qədər qeyri-adi müxtəlif növ əzab vardır.

Uca Allah Cəhənnəmin vəsfi barədə belə buyurur: *“Yanacağı insanlardan və daşlardan olan, kafirlər üçün hazırlanmış Cəhənnəm odundan çəkinin”* (əl-Bəqərə: 24); *“Dərgahımızda onlar üçün qandallar və Cəhənnəm, boğazda tıxanıb qalan yemək və şiddətli əzab vardır”* (əl-Muzzəmmil: 12-13).

Allahım, biz Səndən Cənnəti və ona yaxınlaşdıran söz və əməllərə müvəffəq olmağı diləyirik. Cəhənnəmdən və ona aparan söz və əməllərdən isə Sənə sığınırıq. Amin!

### ❖ Altıncı rükn: Qədərə iman etmək

Qədərə iman – bu həyatda hər bir xeyrin və şərin Allahın qəza-qədəri ilə baş verdiyini, Uca Allahın hər şeyi bildiyini və hər şeyin qədərini Öz dərgahında Lövhi-məhfuzda yazdığını, Allahın istədiyini etdiyini, heç bir şeyin Onun iradəsindən kənara çıxmadığını və hər şeyin məhz Onun yaratması ilə baş verdiyini qəti surətdə təsdiqləməkdir.

Bütün bunlar bəndənin özünə xas iradəsinin və ixtiyarının mövcudluğuna ziddiyyət təşkil etmir. Əksinə, onun özünəməxsus iradəsi və ixtiyarı, yəni seçim haqqı vardır. Lakin bilmək lazımdır ki, bəndənin iradəsi də, ixtiyarı da məhz Uca Allahın iradəsinə və ixtiyarına bağlıdır. Uca Allah bu barədə belə buyurur: *“Allah istəməyincə, siz də istəyə bilməzsiniz”* (əl-İnsan: 30).

## ❧ Səkkizinci dərs ☙

# İSLAMIN RÜKNLƏRİ

İslam dininin beş rüknü vardır. Həmin rüknlər sırasilə aşağıdakılardır:

- Kəlmeyi-şəhadəti, yəni "Əşhədu əllə iləhə illallah və əşhədu ənnə Muhəmmədən rəsulullah" şəhadətini dilə gətirmək və ehtiva etdiyi mənaya da etiqad etmək.
- Namaz qılmaq;
- Zəkat vermək;
- Ramazan orucunu tutmaq;
- Allahın evi Kəbəni həcc etmək.

Bütün bunların dəlili Peyğəmbərimizin ﷺ bu kəlamıdır: *"İslam beş əsas üzərində qurulmuşdur: Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına və Muhəmmədin Allahın peyğəmbəri olmasına şəhadət vermək, namaz qılmaq, zəkat vermək, Kəbəni həcc etmək və Ramazan ayında oruc tutmaq"* (Buxari və Müslim).

❖ **Birinci rükn: *Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına və Muhəmmədin Allahın peyğəmbəri olmasına şəhadət vermək***

❖ **İkinci rükn: Namaz qılmaq**

Namaz – təkbir, yəni "Allahu əkbər" ləfzi ilə başlanıb salam, yəni "əs-sələmu aleykum və rahmətullah" cümləsi ilə bitən xüsusi söz və hərəkətlərdən ibarət olan, bəndəni Rəbbinə yaxınlaşdıran ibadətin adıdır.

Namaz İslamın ikinci əsası, Cənnəti qazanmaq üçün ən önəmli səbəblərdən biri və bəndənin Qiyamət günü hesaba çəkiləcəyi ən birinci məsələdir. Belə ki, bəndənin namazı yerli-yerində olsa, o zaman onun bütün əməlləri də öz dəyər-qiymətində qalacaqdır. Yox, əgər bəndənin namazı düzgün və yetərli şəkildə olmasa, o zaman onun digər əməlləri də zay olacaqdır.

Uca Allah namazı əmr edərək belə buyurur: *"Namaz qılın!"* (əl-Bəqərə: 43) Peyğəmbər ﷺ isə *"İslam beş əsas üzərində*

*qurulmuşdur*”, – demiş və həmin əsaslardan biri olaraq da namazı qeyd etmişdir. Hər bir müsəlmana vacibdir ki, namaza ehtimam göstərsin, onu öz vaxtında və əgər əzanı eşidirsə, camaatla birgə məsciddə və məhz Peyğəmbərimizin ﷺ öyrətdiyi formada qılsın. Namaz qılmayan, yaxud qılıb daha sonra onu tərk edən kəslər böyük bir təhlükə ilə üz-üzədirlər. Bu təhlükə barədə Peyğəmbər ﷺ belə demişdir: *“Bir insanla küfr və şirk arasında namaz qılmamaq dayanır”* (Müslim); *“Bizimlə onlar (yəni kafirlər) arasındakı əhd namazdır, kim onu tərk edərsə, küfr etmiş olar”* (Tirmizi, Nəsai və İbn Macə).

Bütün bunları bildikdən sonra onu qeyd edək ki, əgər kimsə fərz, yaxud nafilə, cümə, bayram və ya cənazə namazı, yaxud hər hansısa başqa bir namaz qılmaq istəyirsə, ilk növbədə, həmin namaz üçün təmizlənməlidir.

**• Böyük natəmizlik və qüsl:**

Əgər insanın üzərində böyük natəmizlik varsa, mütləq qüsl almalıdır, yəni çimməlidir. Qüsldan öncə dəstəmaz alsa, bu lap yaxşıdır, lakin vacib deyildir. Böyük natəmizlik isə aşağıdakı hallarda baş verir:

1. Cinsi yaxınlıq, yəni kişinin cinsiyyət üzvünün qadının cinsiyyət orqanına daxil olması. Bu hal (həm qadın, həm də kişi üçün) qüslu vacib edir, istər sperma ifraz olsun, istər olmasın.
2. İstənilən səbəbə görə spermanın şəhvət hissiylə təzyiqli çıxması (bu hal oyaq, həm də yatmış adama aiddir. İstər cinsi yaxınlıq yolu ilə, yaxud digər başqa bir yolla olsun, fərq etməz, hər bir halda spermanın şəhvət hissi ilə ifraz olması qüslu vacib edən amillərdəndir).
3. Heyz (aybaşı) və nifas (zahı) qanının ifraz olması.

Bu hallardan biri baş verdikdə müsəlman böyük natəmizlikdə sayılır və mütləq qüsl almalıdır.

*Qüslun forması:*

1. Qəlbi ilə böyük natəmizliyin aradan qalxmasına niyyət etmək (yəni bu niyyət ilə çimmək). Niyyəti dil ilə tələffüz etmək düzgün deyil;
2. “Bismilləh” (Allahın adı ilə başlayıram) demək;
3. Ağız və burun boşluğunu yaxalamaq;
4. Bütün bədəni yumaq.

Bu qüsl ilə yalnız böyük natəmizlik aradan qalxır (yəni bu qüsl dəstəmazı əvəz etmir). Lakin qüsldan öncə hər iki natəmizliyin, yəni həm böyük, həm də kiçik natəmizliyin aradan qalxmasına niyyət edilərsə, o zaman bu qüsl dəstəmazı da əvəz edər və yenidən dəstəmaz almağa ehtiyac qalmaz.

• **Kiçik natəmizlik və dəstəmaz:**

Əgər insanın üzərində kiçik natəmizlik varsa və əgər namaz qılmaq istəyirsə, mütləq dəstəmaz almalıdır. Kiçik natəmizlik isə aşağıdakı hallarda baş verir:

1. Sidik, nəcis və bu məxrəclərdən ifraz olunan hər bir şey: nifas və heyz qanından qeyri qanlar, yel və s.
2. Yuxu, bayılma və bu kimi səbəblər ilə ağılın getməsi;
3. Ayıb yerlərinə birbaşa, maneəsiz toxunmaq;
4. Dəvə əti yemək.

*Dəstəmaz almağın qaydası:*

1. Dili ilə tələffüz etmədən, məhz qəlbi ilə kiçik natəmizliyin aradan qalxasına niyyət etmək (yəni bu niyyət ilə dəstəmaz almaq);
2. “Bismilləh” demək;
3. Əlləri biləklərə qədər üç dəfə yumaq;
4. Ağız və burun boşluğunu üç dəfə yaxalamaq;
5. Üzü yumaq, yəni alının saç bitən hissəsindən çənənin sonuna qədər, bir qulaqdan digər qulağa qədər olan hissəni yumaq;
6. Qolları barmaqların ucundan dirsəklərə qədər (dirsəklər də daxil olmaq şərti ilə) üç dəfə yumaq. Qolları yuyarkən sağ qoldan başlamaq daha yaxşıdır;

7. İlk öncə bütün başı, başı məsh etdikdən sonra əldə qalan yaşlıq ilə qulaqları bir dəfə məsh etmək;
8. Ayaqları topuqlara qədər (topuqlar da daxil olmaq şərti ilə) üç dəfə yumaq. Ayaqları yuyarkən sağdan başlamaq daha yaxşıdır.




Bu formada dəstəmaz almaq daha yaxşıdır, lakin hər üzv üç dəfə deyil, bir dəfə də yuyulsa, kifayət edər. Dəstəmazın yuxarıda qeyd edilən tərtiblə və hər üzv arasında uzun fasilə verilmədən alınması vacibdir.

Bu cür dəstəmaz aldıqdan sonra dəstəmaz pozulmadığı, yəni yuxarıda qeyd edilən kiçik natəmizlik hallarından biri baş verməqdiyi müddətcə bu dəstəmaz ilə istənilən sayda namaz qılmaq olar və hər namaz üçün ayrıca dəstəmaz almağa ehtiyac yoxdur. Əgər kiçik natəmizlik hallarından biri baş verərsə, namaz qılmaq istənildikdə mütləq yenidən dəstəmaz alınmalıdır.

Böyük natəmizlik halı baş verdikdə isə əvvəlcə qüsl, daha sonra da dəstəmaz almaq vacibdir. Yuxarıda da qeyd edildiyi kimi, əgər qüsldan öncə hər iki natəmizliyin, yəni həm böyük, həm də kiçik natəmizliyin aradan qalxmasına niyyət edilərsə, o zaman bu qüsl dəstəmazı da əvəz edər və yenidən dəstəmaz almağa ehtiyac qalmaz.

**• Corablar üzərinə məsh etmək:**

Uca Allah müsəlman bəndəsinə icazə verir ki, o, dəstəmaz alarkən ayağını yumaq əvəzinə dəridən, yaxud yun və ya pambıqdan olan ayaq geyiminə məsh etsin. Lakin bunun müəyyən şərtləri vardır. Həmin şərtlər aşağıdakılardır:

1. Gərək ayaq geyimi dəstəmazlı halda geyinilmiş olsun.
2. Gərək ayaq geyimi pak olsun, yəni nəcisə bulanmasın.
3. Gərək ayaq geyimi ayağı topuqlar da daxil olmaq şərti ilə tam örtsün.

Qeyd edilən bu şərtlər əsasında dəstəmaz alarkən ayaqları yumaq əvəzinə, ayaq geyiminə məsh etmək icazəlidir. Məshin müddəti səfərdə olmayan yerli adam üçün 24 saat, müsafir üçün isə 72 saatdır (yəni bu müddət bitdikdən sonra gərək növbəti dəstəmazda ayaqlar yenidən yuyulsun). Qeyd edilən bu məsh dəstəmaza aiddir. Qüsl zamanı isə ayaq geyiminin çıxarılması və ayaqlar da daxil olmaqla bütün bədənin yuyulması vacibdir.

***Məsh etməyin forması:***

Su ilə isladılmış sağ əl ilə sağ corabın, sol əl ilə də sol corabın üst qismini, barmaqların ucundan başlayaraq ayaq bükümünə qədər məsh etmək. Ayaq geyiminin altına məsh edilməz.



**• Təyəmmüm:**

Dəstəmaz, yaxud qüsl üçün su olmadığı və ya su olsa da, xəstəlik, yaxud soyuq hava səbəbi ilə sudan istifadə edilə bilinmədiyi hallarda dəstəmaz, yaxud qüsl əvəzinə təyəmmüm etmək icazəlidir.

***Təyəmmüm etməyin qaydası:***

1. Dili ilə tələffüz etmədən, məhz qəlbi ilə kiçik, yaxud böyük natəmizliyin aradan qalxasına niyyət etmək (yəni bu niyyət ilə təyəmmüm etmək);
2. “Bismilləh” demək;

3. İki ovucun içini torpağa vurmaq, sonra onunla üzü, daha sonra isə hər iki əlin üstünü məsh etmək.



Bunu etməklə müsəlman kiçik və ya böyük natəmizlikdən təmizlənmiş sayılır və beləcə, qüslun, yaxud dəstəmazın şərt olduğu bütün əməlləri (məs. namaz qılmaq, Quran kitabına toxunmaq və s.) təyəmmüm ilə də həyata keçirə bilər.

Təyəmmüm ilə təmizlənmiş birisi su tapdıqda, yaxud (xəstəliyinin və s. səbəblərin aradan getməsi ilə) sudan istifadə etməyə qadir olduqda onun təmizliyi pozulmuş sayılır. Bu halda yenidən su ilə təmizlənməsi, yəni qüsl və ya dəstəmaz alması vacibdir.

## ❧ Doqquzuncu dərs ☙

# NAMAZ QILMAĞIN QAYDASI

***Namaz qılmaq üçün lazım olan şərtlər aşağıdakılardır:***

1. Namazın vaxtının girməsi. Hər fərz namazın özünəxas vaxtı vardır. Bu vaxtlar Peyğəmbərimiz ﷺ tərəfindən təyin edilmişdir. Heç kəsə namazın vaxtı girməmiş onu qılmaq icazəli olmadığı kimi, namazın vaxtını gecikdirmək də icazəli deyildir;
2. Əgər dəstəmazlı deyilsə, öncəki səhifələrdə qeyd etdiyimiz formada dəstəmaz almaq;
3. Övrət yerlərini örtmək. Kişinin övrəti göbəkdən dizə qədərdir. Qadının isə yalnız üzü və əlləri istisna olmaqla, bütün bədəni namazda övrət sayılır;
4. Namaz qılması üçün nəcasətdən uzaq təmiz bir yer seçmək;
5. Qibləyə tərəf yönəlmək. Müsəlmanların qibləsi Məkkə şəhərində yerləşən müqəddəs Kəbə evidir.

***Namaz qılmağın qaydası:***

1. Dili ilə tələffüz edilmədən, məhz qəlb ilə qılınması istənilən namaza niyyət edilir (yəni namaz qılanın hansı namazı qıldığının fərqində olması labüddür);

2. Namaz qılmaq üçün ayaq üstə dayanıb *“Allahu əkbər” (mənası: Allah ən böyükdür)* deyilir, ovuclar qibləyə tərəf yönəlmiş halda əllər qulaqlar, yaxud da çiyinlər bərabərinə qaldırılır. Bu “təkbiratül-ehram”, yəni “namaza başlamaq üçün olan təkbir” adlanır.

3. Təkbir etdikdən sonra sağ əl sol əlin üstünə qoyulur və əllər sinə üzərində bağlanır (namaz əsnasında qiyamda, yəni ayaq üstə dayanarkən daim belə edilir).

4. Sonra “istiftəh”, yəni “namazın açılış” duası oxunur: *“Subhanəkə Allahummə və bihəmdikə və təbarəkə ismukə və təalə cədduke və lə iləhə ğeyrukə” (mənası: Ey Allahım, Sən bütün naqisliklərdən bərisən. Sənə həmd edirik. Sənin adın mübarək,*

*şənin isə ucadır. Səndən başqa haqq ilah da yoxdur).* İstiftəh duası olaraq bu duanı və ya Peyğəmbərimiz ﷺ tərəfindən bizə öyrədilən digər hər hansı bir istiftəh duasını da oxumaq olar.

5. Sonra *"Əuzu billəhi minəş-şeytanir-rəcim. Bismilləhir-Rahmənir-Rahim" (mənası: Qovulmuş şeytanın şərindən Allaha sığınıram. Mən Mərhəmətli və Rəhmli Allahın adı ilə başlayıram)* deyilir. Sonra əl-Fatihə surəsi oxunur. Fatihəni oxuduqdan sonra *"Amin" (mənası: Allahım qəbul et!)* deyilir, daha sonra Qurani-Kərimdən əzbər bildiyi hər hansı bir ayə, yaxud surə oxunur.

6. Sonra rükuya getmək üçün təkbir edilir, ovuclar qibləyə tərəf yönəlmiş halda əllər qulaqlara yaxın bir istiqamətdə qaldırılaraq *"Allahu əkbər"* deyilir və rüku edilir. Rükuda olarkən əllərin iç hissəsi diz qapaqlarına qoyulur və *"Subhanə rabbiyəl azim" (mənası: Əzəmətli Rəbbim nöqsanlardan uzaqdır)* deyilir. Bu zikri üç dəfə təkrarlamaq daha yaxşıdır.

7. Sonra rükudan qalxılır və ayaq üstə dik durulur, ovuclar qibləyə tərəf yönəlmiş halda əllər qulaqlara yaxın bir istiqamətdə qaldırılaraq *"Səmiallahu limən həmidəh. Rabbənə və ləkəl həmdu, həmdən kəsiran tayyibən mübarəkən fihi" (mənası: Allah Ona həmd edəni eşidər. Ey Rəbbim, Sənə çoxlu, gözəl və mübarək həmdü-səna olsun!)* deyilir. Bu sözləri həm imam, həm də təklikdə namaz qılanlar deyirlər. İmama tabe olaraq, onun arxasında namaz qılanlar isə *"Səmiallahu limən həmidəh"* deməzlər, yalnız *"Rabbənə və ləkəl həmdu, həmdən kəsiran tayyibən mübarəkən fihi"* deyərlər.

8. Sonra səcdəyə getmək üçün təkbir edilir və *"Allahu əkbər"* deyilir. Bu zaman əllər qaldırılmır. Səcdə edərkən üz – alın və burun nahiyəsi, iki əl, iki diz və iki ayaq yerə qoyulur, səcdə bitənə qədər bu əzalardan heç biri yerdən qaldırılmır və *"Subhanə rabbiyəl alə" (mənası: Uca Rəbbim nöqsanlardan uzaqdır)* deyilir. Bu zikri üç dəfə təkrarlamaq daha yaxşıdır. Zikri etdikdən sonra Allaha dua edib dünya və Axirət xeyrindən arzuladığını istəyə bilər.

9. Sonra *"Allahu əkbər"* deyərək səcdədən qalxılır, sol ayaq üzərində oturularaq sağ ayaq dik tutulur, əllər dizə yaxın istiqamətdə ayaqlar üzərinə qoyulur və *"Rabbiğfirli" (mənası:*

*Rəbbim məni bağışla!)* deyilir. Bu zikri üç dəfə təkrarlamaq və bu zikrə *"Varhəmni, vəhdini, varzuqni, və afini, vəcburni" (mənası: Allahım, mənə rəhm et, məni doğru yola yönəlt, məni ruziləndir, mənə salamatlıq ver və mənə lütf et)* əlavəsini etmək daha yaxşıdır.

10. Sonra *"Allahu əkbər"* deyərək eyni qaydada ikinci səcdə edilir.

11. Sonra *"Allahu əkbər"* deyərək səcdədən ikinci rükətə qalxılır və ayaq üstə durulur. İkinci rükət də eyni ilə birinci rükət kimi qılınır. Sadəcə olaraq, ikinci rükətdə istiftəh duası oxunmur.

12. <u>Əgər namaz Sübh namazı, Cümə namazı və nafilə namazları kimi iki rükətlidirsə</u>, ikinci rükətdə iki səcdə edildikdən həmən sonra təşəhhüd üçün oturulur (və üçüncü rükətə qalxılmır). Bu oturuşun forması da eynilə iki səcdə arasındakı oturuş kimidir. Yeganə fərq bundadır ki, bu oturuşda sağ əlin bütün barmaqları (yumruq şəklində) yumulur, yalnız şəhadət barmağı düz saxlanılır. Bu oturuşda ***təşəhhüd duası*** oxunur: *"Ət-təhiyyətu lilləhi, vas-saləvatu, vat-tayyibətu, əs-sələmu aleykə əyyuhən-nəbiyyu va rahmətullahi va bərakətuhu, əs-sələmu aleynə va alə ibədil-ləhis-salihin. Əşhədu əllə iləhə illəllahu və əşhədu ənnə Muhəmmədən abduhu va rasuluhu. Allahummə salli alə Muhəmmədin va alə əli Muhəmməd, kəmə salleytə alə İbrahimə va alə əli İbrahimə, innəkə həmidun məcid. Allahummə bərik alə Muhəmmədin va alə əli Muhəmməd, kəmə bəraktə alə İbrahimə va alə əli İbrahimə, innəkə həmidun məcid" (mənası: Salamlar, dualar və gözəl şeylər Allaha məxsusdur. Ey Allahın Peyğəmbəri, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti olsun! Bizə və Allahın əməlisaleh bəndələrinə Allahın salamı olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yoxdur və yenə şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Allahım, İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Həqiqətən, Sən həmdü-sənaya və tariflərə layiqsən. Allahım, İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Həqiqətən, Sən həmdü-sənaya və tariflərə layiqsən).* Təşəhhüd duası oxunduqdan sonra istənilən dua edilə bilər. Daha sonra *"Əs-sələmu aleykum və rahmətullah" (mənası:*

*Allahın sizə salamı və rəhməti olsun!)* deyilərək sağ tərəfə salam verilir. Sonra da sol tərəfə çevrilərək eyni sözlər deyilir (bununla da iki rükətli namaz tamamlanır).

13. Əgər namaz Məğrib namazı kimi üç rükətli, yaxud Zöhr, Əsr və İşa namazları kimi dörd rükətlidirsə, ikinci rükətin sonunda təşəhhüd duası “*Əşhədu əllə iləhə illəllahu və əşhədu ənnə Muhəmmədən abduhu va rasuluhu*” yerinə qədər oxunur, sonra əllər qulaqlara yaxın bir istiqamətdə qaldırılaraq *“Allahu əkbər”* deyilir və üçüncü rükətə qalxılır. Üçüncü rükətdə əl-Fatihə surəsi oxunur, *“Amin”* deyilir, rüku edilir, bir sözlə, əvvəlki qayda üzrə rükət tamamlanır. Üçüncü rükətin sonunda iki səcdə edildikdən sonra baxılır: əgər namaz Məğrib namazıdırsa (yəni üç rükətlidirsə), sonuncu təşəhhüd üçün oturulur və 12-ci bənddə qeyd edildiyi kimi, təşəhhüd duası sonacan oxunur və həm sağ, həm də sol tərəfə salam verilir (bununla da üç rükətli namaz tamamlanır). Yox, əgər namaz Zöhr, Əsr, yaxud İşa namazıdırsa (yəni dörd rükətlidirsə), üçüncü rükətin sonunda təşəhhüd üçün oturulmur, əksinə, dördüncü rükətə qalxılır və dördüncü rükət də eynilə üçüncü rükət kimi qılınır. Dördüncü rükətin sonunda təşəhhüd üçün oturulur və 12-ci bənddə qeyd edildiyi kimi, təşəhhüd duası sonacan oxunur və həm sağ, həm də sol tərəfə salam verilir (bununla da dörd rükətli namaz tamamlanır).

# NAMAZIN MUXTƏSƏR TƏLIMI



Təkbir

**TƏKBİR:** Allahu Əkbər!

**Qiyamda** Subhənəkəllahummə və bihəmdikə və təbərakəsmukə
və təalə cəddukə və lə iləhə ğayrukə!
Əuzu billəhi minəş-şeytanir-racim!

(yalnız birinci rükətdə)



Qiyam

**Fatihə surəsi:**

Bismilləhir Rahmənir Rahim!
Əlhəmdu-lilləhi Rabbil aləmin
Ər-Rahmənir Rahim, Məliki yəumiddin,
İyyəkə nəabudu və İyyəkə nəstəin,
İhdinəs-sıratal mustəqim,
Sıratal-ləzinə ən'əmtə aleyhim
ğayril məğdubi aleyhim vələd'da-lin!
Əmin!

**İxlas surəsi:**

Bismilləhir Rahmənir Rahim!
Qul huvallahu Əhəd, Allahu-s-Samad,
Ləm yəlid və ləm yuləd,
Və ləm yəkul-ləhu kufuvən əhəd.

(yalnız birinci və ikinci rükətdə)



Rüku



Səcdə

| | |
|---|---|
| **Təkbir:** | Allahu Əkbər! |
| **Rükuda:** | Subhənə Rabbiyəl-Azim (1 və ya 3 dəfə) |
| **Rükudan qalxanda:** | Səmi Allahu limən həmidəh (1 dəfə) |
| **Qıyamda:** | Rabbənə və ləkəl həmd (1 dəfə) |
| **Təkbir:** | Allahu Əkbər! |
| **Birinci səcdə:** | Subhənə Rabbiyəl-Əə`lə (1 və ya 3 dəfə) |
| **Təkbir:** | Allahu Əkbər! |
| **Səcdələr arasında:** | Rabbiğfirli (3 dəfə) |
| **Təkbir:** | Allahu Əkbər! |
| **İkinci səcdə:** | Subhənə Rabbiyəl-Əə`lə (1 və ya 3 dəfə) |

(tək rükət)



Birinci təşəhhüddə oturmaq qaydası

**Təkbir:** Allahu Əkbər!

**Təşəhhüd:**
Əttəhiyyətu lilləhi vas-saləvatu vat-tayyibətu.
Əs-sələmu aleykə əyyuhən-nəbiyyu və rahmətullahi və bərakətuhu.
Əs-sələmu aleynə və alə ibadilləhis-salihin.
Əşhədu əllə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu və əşhədu ənnə
Muhəmmədən əbduhu və rasuluhu.



Sonuncu təşəhhüddə oturmaq qaydası

Allahummə salli alə Muhəmmədin və alə əli Muhəmməd
Kəmə salleytə alə İbrahimə və alə əli İbrahim
İnnəkə Həmidun Məcid!
Allahummə bərik alə Muhəmmədin və alə əli Muhəmməd
Kəmə bəraktə alə İbrahimə və alə əli İbrahim
İnnəkə Həmidun Məcid!

(cüt rükət)



Salamlar

**Sağa salam:** ƏsSələmu aleykum və rahmətuLlah

**Sola salam:** ƏsSələmu aleykum və rahmətuLlah.

(axırıncı rükət)

**Qeyd**: Sübh namazı 2 rükət, Zöhr 4, Asr 4, Məğrib 3, İşa namazı isə 4 rükətdir.

***Fərz namazlarının salamını verdikdən sonra sırası ilə bunları (bir qismini, yaxud hamısını) oxumaq müstəhəbdir (yəni oxumaq vacib olmasa da, oxunması daha yaxşıdır):***

1. Üç dəfə *“Əstəğfirullah” (mənası: Allahdan bağışlanma diləyirəm)* demək.
2. Sonra bir dəfə *“Allahummə əntəs-sələmu va minkəs-sələmu təbəraktə yə zəl-cələli val-ikram” (mənası: Ey Allahım, bəndələrinə əmin-amanlıq bəxş edən Sənsən və əmin-amanlıq da yalnız Səndəndir. Ey qüvvət və lütf sahibi, Sən xeyirxahsan)* demək.
3. *“Allahummə, lə mənią limə ə'taytə va lə mu'tiyə limə mənə'tə va lə yənfəu zəl-cəddi minkəl-cədd” (mənası: Allahım! Sənin verdiyinə mane olacaq, mane olduğunu da verə biləcək bir kəs yoxdur. Heç bir mal-dövlət və cah-calal sahibinə Sənin yanında hörməti fayda verməz).*
4. Sonra 33 dəfə *“Subhanəllah”*, 33 dəfə *“Əlhəmdulilləh”*, 33 dəfə *“Allahu əkbər”*, sonda isə bir dəfə *“Lə iləhə illəl-lahu vahdəhu lə şərikə ləhu. Ləhul-mulku va ləhul-həmdu va huvə alə kulli şeyin qadir” (mənası: Allahdan başqa haqq məbud yoxdur, O təkdir və Onun heç bir şəriki yoxdur. Mülk və həmdü-sənalar yalnız Ona məxsusdur. O hər şeyə Qadirdir)* deyilir.
5. Həmçinin fərz namazlarından sonra Ayətül-Kürsini, əl-İxlas, əl-Fələq, ən-Nəs surələrini bir dəfə oxumaq bəyənilir. Sübh və Məğrib namazlarından sonra isə əl-İxlas, əl-Fələq, ən-Nəs surələrini üç dəfə oxumaq daha yaxşıdır.

Bu dua və zikrlər gərək hər namaz qılan tərəfindən təklikdə deyilsin. İmamın arxasında camaatla birgə xor şəklində deyilməsi əsla düzgün deyildir. Çünki zikr və duaların bu formada deyilməsi nə Peyğəmbərimizdən ﷺ, nə də onun əshabından ﷿ varid olmuşdur.

• **Müstəhəb (könüllü) namazlar:**

Uca Allah Öz bəndələri üçün qılınması icbari deyil, könüllü olan bəzi namazlar təyin etmişdir. Bəndə bu növ namazları qılması ilə savab və əcr əldə edir. Həmçinin bu namazlar gündəlik beş vaxt qılınan fərz (vacib) namazlarında baş vermiş nöqsanların yerini doldurur. Peyğəmbər ﷺ demişdir: *"Bəndənin (Qiyamət günü) hesaba çəkiləcəyi ilk şey onun namazı olacaqdır. Əgər namazları yerli-yerində olsa, nə yaxşı! Yox, əgər namazlarında bir naqislik olsa, o zaman Uca Allah belə deyəcəkdir: "Qulumun nafilə (könüllü) namazlarına baxın!" Əgər onun nafilə namazları olarsa, o zaman Uca Allah belə deyər: Həmin nafilələr ilə fərzləri tamamlayın"* (Nəsai).

Nafilə namazlardan bəziləri aşağıdakılardır:

***Rabitə sünnələr:*** Bu namazlar fərz namazlarından əvvəl, yaxud sonra qılınan müstəhəb namazlardır.

Rabitə sünnət namazları:

1. Sübh namazından öncə iki rükət;
2. Zöhrdən öncə (iki-iki qılınan) dörd, sonra iki rükət;
3. Məğrib namazından sonra iki rükət;
4. İşa namazından sonra iki rükət.

Peyğəmbərimiz ﷺ xəbər vermişdir ki, kim bu namazları qılarsa, Uca Allah onun üçün Cənnətdə bir qəsr tikər.

***Duha namazı:*** İki rükət və daha çox sayda qılına bilər. Vaxtı isə duha – səhər çağı vaxtıdır, yəni təxmini günəş doğandan iyirmi dəqiqə sonra başlayıb təqribən Zöhr namazına iyirmi dəqiqə qalmışa qədər davam edir. Peyğəmbər ﷺ belə demişdir: *"Hər biriniz bədənində olan oynaq sayına görə gündəlik sədəqə verməlidir. Hər dilə gətirilən təsbih ("subhanəllah" zikri) sədəqədir, hər təhmid ("əlhəmdulilləh" zikri) sədəqədir, hər təhlil ("lə iləhə illəllah" zikri) sədəqədir, hər təkbir ("Allahu əkbər" zikri) sədəqədir. Yaxşılığı əmr etmək öz-özlüyündə bir sədəqə, insanları pisliklərdən çəkindirmək də ayrıca bir sədəqədir. Duha – səhər çağı qılınan iki rükət namaz isə bütün bunları əvəz edir"* (Müslim).

***Vitr namazı:*** Bir rükət, üç rükət və daha çox sayda qılına bilər. Vitr namazı tək rükətli (beş, yeddi, doqquz rükət və s.) namazdır. Hər iki rükətdən bir salam verilərək iki-iki qılınır, sonda isə bir

rükətlə tamamlanır. Vaxtı isə İşa namazından sonra başlayır, Sübh namazının vaxtı girənə qədər davam edir, yəni vitr namazı gecə qılınan bir namazdır. Səhabə Əbu Hureyrə ﵁ belə demişdir: *“Mənim can dostum (yəni Peyğəmbər ﷺ) mənə üç şeyi tövsiyə etmişdir: hər aydan üç gün oruc tutmağı, iki rükətlik Duha namazını və yatmamışdan öncə Vitr namazını qılmağı”* (Buxari və Müslim).

**• Namazda yol verilən xətalar:**

Namaz qılanın namazında yol verə biləcəyi xətalar, əsasən, üç növ olur:

1. Səhvən və ya bilmədən namazı naqis rükətdə qılmaq. Belə halda həmin naqislik namaz daxilində xatırlandıqda həmən aradan qaldırılmalıdır. Məsələn, Zöhr namazını qılan biri səhvən üçüncü rükətin sonunda təşəhhüdə oturub dördüncü rükətə qalxmasa, yəni Zöhr namazını səhvən bir rükət əskik qılsa, səhvini xatırladığı anda həmən dördüncü rükətə qalxmalı, dördüncü rükətin sonunda təşəhhüdə oturmalı və beləcə namazını tamamlamalıdır.

2. Səhvən və ya bilməzlikdən namaza nəyisə əlavə etmək. Belə halda həmin xəta xatırlandığı anda həmən (namaza edilmiş həmin əlavə) tərk edilməli və namazdakı əsli yerinə qayıdılmalıdır. Məsələn, Zöhr namazını qılan biri səhvən beşinci rükətə qalxsa, yəni Zöhr namazına səhvən bir rükət əlavə etsə, səhvini xatırladığı anda həmən namazdakı əsli yerinə qayıtmalıdır, yəni sonuncu təşəhhüdə oturmalıdır. Çünki o, artıq Zöhrün dörd rükətini qılıb və namazını tamamlaması üçün yalnız təşəhhüdə oturması (və salam verməsi) qalıb.

3. Hər hansı bir rükətdə səcdə edib-etmədiyi barədə və ya ikinci, yoxsa üçüncü rükətdə olduğuna dair şübhəyə düşmək. Belə halda baxılır: əgər qənaəti onu müəyyən bir tərəfə yönəldirsə, ona görə də əməl etməlidir. Məsələn, üçüncü rükətdə olduğu qənaətinə gəlsə, o zaman elə üçüncü rükətdə sayılır. Yox, əgər qənaəti onu müəyyən bir tərəfə yönəltməsə və tərəddüd halında qalsa, bu zaman daha yəqin olduğu ehtimalı, yəni (yuxarıdakı “rükət” misalında) az olan sayı, yaxud da (“səcdə edib-etmədiyi” misalında) həmin əməli etmədiyini əsas götürməlidir. Məsələn,

hansısa bir rükətdə səcdə edib-etmədiyi barədə şübhəyə düşən biri sona qədər tərəddüd halında qalsa, səcdə etmədiyini əsas götürməlidir. Həmçinin ikinci, yoxsa üçüncü rükətdə olduğuna dair şübhəyə düşən biri sona qədər tərəddüd halında qalsa, özünün ikinci rükətdə olduğunu əsas götürməlidir.

Yuxarıda qeyd edilən hər üç halda namazın sonunda, yəni təşəhhüd duasından sonra və salamlardan öncə iki dənə əlavə səcdə edilməlidir. Bu səcdələr eyni ilə namaz səcdələri kimidir.

## ☙ Onuncu dərs ❧

# CÜMƏ, BAYRAM VƏ CƏNAZƏ NAMAZLARI

### • Cümə namazı

Cümə namazı səsli qılınan iki rükətli namazdır. Cümə namazından öncə məscidin imamı xütbə verməli və məscidin camaatı da onu dinləməlidir. Cümə namazının vaxtı elə Zöhr namazının vaxtıdır (Cümə namazı qılındıqda Zöhr namazı qılınmır).

***Cümə namazının hökmü:*** Cümə namazı namaza gəlməyə gücü çatan şəhər və ya kəndin yerli kişi sakinlərinə vacibdir. Cümə namazını tərk etmək, yaxud ona səhlənkar yanaşmaq qətiyyən yolverilməzdir. Cümə namazı qadınlara, səfərdə olanlara və namaza gəlməyə gücü çatmayanlara (xəstə və s.) vacib deyildir. Onlar digər günlərdə olduğu kimi, Zöhr namazını qılarlar. Lakin Cümə namazına gəlsələr, onların qıldıqları Cümə namazı doğru hesab edilər və yenidən Zöhr namazını qılmağa da ehtiyac qalmaz.

Cümə namazına gəlib çata bilməyən və ya imam ikinci rükətə qalxdıqdan sonra gəlib çatan, yaxud məscid uzaq olduğuna görə və ya digər başqa bir səbəbdən ötrü Cümə namazında iştirak etməyən şəxslər digər günlərdə olduğu kimi, dörd rükətli Zöhr namazını qılmalıdırlar.

### • Bayram namazı

Dinimizdə bayram namazının böyük fəziləti vardır. Bayram namazı kişilər üçün "fərzu-kifayə"dir, yəni fərdi şəkildə deyil, toplum halında vacibdir. Belə ki, bayram namazında həmin diyarın camaatından kifayət qədər adam iştirak edərsə, digərlərinə, hətta onlar iştirak etməsələr belə, günah yazılmaz. Bayram namazı qadınlar üçün vacib olmasa da, şəriət tərəfindən qılınması təkid edilən könüllü namazlardan sayılır.

Vaxtı isə təxmini günəş doğandan iyirmi dəqiqə sonra başlayıb təqribən Zöhr namazına iyirmi dəqiqə qalmışa qədər davam edir, lakin erkən vaxtlarda qılınması daha yaxşıdır.

***Bayram namazını qılmağın qaydası:*** Bayram namazı toplum halında imamla birgə qılınan iki rükətli namazdır. Bu namazdan əvvəl əzan və ya iqamə verilmir.

- İmam birinci rükətdə ilk təkbirdən sonra istiftəh duasını oxuyur. Sonra (əl-Fatihə surəsindən öncə) altı təkbir (altı dəfə "Allahu əkbər") deyir və hər təkbir arasında azca fasilə verir. İmamın arxasında olan camaat da onunla birgə təkbirləri təkrarlayır. İmam təkbirləri tamamladıqdan sonra səsli şəkildə Fatihəni, daha sonra Qurandan başqa bir surəni, yaxud bəzi ayələri oxuyur. Sonra sırasilə rüku və iki səcdə edir, daha sonra "Allahu əkbər" deyərək ikinci rükətə qalxır.
- İkinci rükətdə isə birinci rükətdəki kimi (əl-Fatihə surəsindən öncə) beş təkbir deyir. Təkbirləri tamamladıqdan sonra səsli şəkildə Fatihəni, daha sonra Qurandan başqa bir surəni, yaxud bəzi ayələri oxuyur. Sonra rüku edir və (öncəki səhifələrdə öyrəndiyimiz qaydaya uyğun olaraq) adi formada namazını tamamlayır.

Namazdan sonra imam iki hissəli xütbə oxuyaraq insanlara öyüd-nəsihət verir.

**• Cənazə namazı**

Hər hansı bir müsəlman öldükdə onun yaxınlarına, qohum-əqrəbasına və ətrafında olan insanlara bu kədərli hadisəyə görə səbir etmələri və onun üçün dua etmələri vacibdir. Həmçinin cənazənin yuyulması, kəfənlənməsi, cənazə namazının qılınması və müsəlman qəbiristanlığında basdırılması da onların boyunlarının borcudur. Cənazə namazı "fərzu-kifayə"dir, yəni fərdi şəkildə deyil, toplum halında vacibdir. Belə ki, cənazə namazında kifayət qədər adam iştirak edərsə, digərlərinə, hətta onlar iştirak etməsələr belə, günah yazılmaz, lakin iştirak etmələri daha yaxşıdır.

***Cənazə namazını qılmağın qaydası:*** Bir, yaxud bir neçə cənazə imamın önünə (yəni imam ilə qiblə arasına) qoyulur.

- İmam "Allahu əkbər" deyərək birinci təkbiri edir. İmamın arxasında olan camaat da onunla birgə təkbir edir. Sonra səssiz

şəkildə əl-Fatihə surəsi oxunur. Fatihədən öncə istiftəh duası oxunmur.

- Sonra imam və arxasında olan camaat ikinci təkbiri edir. Təkbirdən sonra (məlum olan formada) Peyğəmbərə ﷺ dua edilir: *“Allahummə salli alə Muhəmmədin va alə əli Muhəmməd, kəmə salleytə alə İbrahimə va alə əli İbrahimə, innəkə həmidun məcid”.*

- Sonra imam və camaat üçüncü təkbiri edir. Bu təkbirdən sonra meyit üçün dua edilir, Allahdan onun üçün rəhmət və məğfirət istənilir.

- Sonra imam və camaat dördüncü təkbiri edir. Bu təkbirdən sonra yalnız sağ tərəfə salam verilir (bununla da cənazə namazı tamamlanır).

*Qeyd:* Cənazə namazında rüku və səcdələr yoxdur. Cənazə namazı ayaq üstə qılınır və dörd təkbirdən ibarətdir.

***Cənazəni dəfn etməyin qaydası:*** İlk öncə təxmini bir metr dərinliyi olan qəbir qazılır. Sonra meyit sağ çiyni üstə, üzü qibləyə tərəf qəbrə qoyulur. Cəsədi qəbrə qoyan adamın bu sözləri deməsi daha yaxşıdır: *“Bismilləh və alə milləti rasulilləh” (mənası: Allahın adı, Peyğəmbərin ﷺ şəriəti ilə!)* Sonra cəsəd qoyulan hissəni hər iki tərəfdən daşa oxşar quru palçıqla (plitə, daş, taxta və sairə ilə) örtmək, sonra torpaq tökmək lazımdır. Belə edilir ki, meyitin üstünə birbaşa torpaq tökülməsin. Qəbir yerdən bir qarış hündürlükdə qaldırılır və dəvə ürgücü şəklində edilir.

Qəbrin üstündə tikili – qübbə, yaxud türbə və s. inşa etmək, onu sementləmək, işıqlarla (şam və s.) bəzəmək, qəbir üzərində gəzmək, qəbrin yanında namaz qılmaq, yaxud qəbir olan yeri namazgaha çevirmək və qəbri tavaf etmək qəti şəkildə qadağandır və haramdır.

## ❧ On birinci dərs ☙

# İSLAMIN ÜÇÜNCÜ RÜKNÜ: ZƏKAT VERMƏK

Zəkat Allaha ibadət qəsdi ilə yerinə yetirilməsi vacib olan maddi haqdır. Müəyyən vaxtda, xüsusi növ mallardan (nəqd pul, mal-qara və s.) çıxarılır və şəriətin təyin etdiyi insanlara verilir.

Zəkat İslamın üçüncü rüknüdür və mal ilə edilən ən əfzəl ibadətlərdəndir. Çünki zəkat ehtiyacı olanlara yardımın, zəngin və fəqirlər arasında isə sevgi və sayğının nümunəsidir. Zəkat malın artması və bərəkətli olması, habelə mal sahibinin öz nəfsini islah edərək təmizləməsi üçün bir vasitədir.

Uca Allah zəkatı əmr edərək belə buyurmuşdur: *“Namaz qılın və zəkat verin!”* (əl-Bəqərə: 43) Peyğəmbər ﷺ isə “*İslam beş əsas üzərində qurulmuşdur*”, – demiş və həmin əsaslardan biri olaraq da zəkatı qeyd etmişdir. Hər bir müsəlman bu ibadətə ehtimam göstərməli və səhlənkarlığa yol verməməlidir. Bu ibadətə qarşı laqeydlik edənlər üçün Uca Allah tərəfindən şiddətli əzab hazırlanmışdır.

<u>Zəkatın vacib olduğu mal-dövlət növləri aşağıdakılardır</u>:

**1. Qızıl və gümüş, habelə manat, dollar kimi nağd pullar:**

Əgər bir müsəlman ən azı 85 qr xalis qızıla və ya 595 qr xalis gümüşə, yaxud bu ikisindən qiyməti daha aşağı olanın dəyərində olan nağd pula malik olarsa və bunun üzərindən bir il keçərsə, o zaman zəkat verməsi, yəni həmin məbləğin qırxda birini, yəni 2.5%-ni zəkat olaraq çıxartması ona vacib olar. Misal üçün, əgər sahib olunan qızılın miqdarı 200 qrama çatarsa və üzərindən bir il keçərsə, 2.5%-i (yəni 5 qr qızılın qiyməti) zəkat çıxarılar. Başqa bir misal: əgər sahib olunan nağd pulun qiyməti 1000 dollara çatarsa və bu məbləğ 85 qr qızıl və ya 595 qr gümüşün dəyərində olarsa, habelə üzərindən bir il keçərsə və həmin məbləğ azalmadan

qalarsa, o zaman həmin pulun 2.5%-i, yəni 25 dollar zəkat çıxarılmalıdır.[1]

2. **Buğda, arpa, qarğıdalı və xurma kimi əkin məhsulları və dənli bitkilər:**

Bu növ məhsullara iki şərt çərçivəsində zəkat düşür.

*Birinci şərt:* Əkin məhsulunun ölçü vahidi "saa" olmalıdır.[2]

*İkinci şərt:* Uzun müddət saxlanıla bilən və saxlanıldıqda xarab olmayan məhsullardan olmalıdır.

Əkin məhsulunun, meyvə və dənli bitkilərin miqdarı 300 saaya, yəni təqribən 612 kiloqrama çatarsa, yığım tamamlandıqda zəkatı verilməlidir. Bunun üçün bir ilin keçməsi şərt deyil. Bunun da iki halı vardır:

*Birinci hal:* Əgər bu əkin məhsulları quyu qazmaq, su matorlarından istifadə etmək kimi insan əməyinin zəhməti ilə suvarılarsa, bu zaman məhsulun iyirmidə biri, yəni 5%-i zəkat çıxarılar.

*İkinci hal:* Əgər əkin məhsulları insan əməyinin zəhməti ilə deyil, yağış, çay, arx suları ilə suvarılarsa, bu zaman məhsulun onda biri, yəni 10%-i zəkat çıxarılar.

Məsələn, əgər əkin sahəsi insan əməyinin zəhməti ilə suvarılıbsa və əldə edilən məhsul 1000 kq olubsa, məhsulun 5%-i, yəni 50 kiloqramı zəkat çıxarılmalıdır. Yox, əgər əkin sahəsi insan əməyinin zəhməti ilə suvarılmayıbsa, bu zaman məhsulun 10%-i, yəni 100 kiloqramı zəkat çıxarılmalıdır.

---

[1] Misal olaraq, 1 qr qızılın dəyişkən qiyməti 70 AZN olarsa, həmin məbləğ 85-ə vurulmalı (70 × 85 = 5950 AZN) və alınan nəticənin 2.5%-i zəkat çıxarılmalıdır. Bunun üçün alınan nəticəni 40-a bölməliyik: 5950 ÷ 40 = 148.75

Deməli, 5950 AZN-ə sahib olan bir müsəlman bir il keçdikdən sonra təxmini 148 AZN zəkat çıxartmalıdır.

[2] "Saa" miqdarının müasir ölçü vahidi olan kiloqram ilə dəyərləndirilməsi ölçülən məhsulun növündən asılı olaraq dəyişir. Belə ki, 1 saa buğdanın kiloqram ilə olan çəkisi 1 saa düyünün və ya xurmanın, yaxud kişmişin çəkisindən fərqli olur. Bu səbəbdən də, ehtiyat baxımından, mövzuya dair saa miqdarını kiloqram ölçü vahidi ilə təqdim edəcəyəm.

**3. Ticarət əmtəəsi:**

Ticarət məqsədi ilə hazırlanmış daşınmaz əmlak, maşın, geyim və digər istehlak malları bu növə aiddir.

Bir il keçdikdən sonra dükanda qalan və ticarət məqsədi ilə istifadə olunan malların dəyəri zəkat çıxartmalı olduğu gün bazar qiymətlərinə uyğun hesablanmalıdır. Əgər hesablanan malların dəyəri nisab miqdarına (yəni 85 qr qızılın və ya 595 qr gümüşün qiymətinə) çatarsa, həmin məbləğin 2.5%-i zəkat çıxarılmalıdır.

Məsələn, əgər malların qiyməti 10000 AZN-dirsə, 2.5%-i, yəni 250 AZN zəkat çıxarılmalıdır.

Əgər ticarət malları alınıb-satılırsa və bir il ərzində dükanda qalmırsa, bu zaman həmin malların zəkatı bu qayda üzrə çıxarılır: Ticari məşğuliyyətə başlandığı gündən bir il keçdikdən sonra dükanda qalan malların dəyəri hesablanır, həmin məbləğə satılan digər malların xərclənməmiş – əldə qalan nağd pulları əlavə edilir və ümumi qiymətin 2.5%-i zəkat çıxarılır.

Əgər bu mallar (ev, maşın və s.) ticarət üçün deyil, icarə üçün təyin edilibsə, bu zaman onun pul dəyərinə zəkat düşmür. Yəni hər il icarəyə verilmiş malların pul dəyəri hesablanaraq onun zəkatı çıxarılmır. Əksinə, həmin icarədən əldə edilən qazancın məbləği nisab miqdarına çatandan və üzərindən bir il vaxt keçəndən sonra nağd pulun zəkatı çıxarılır.

Əgər bu mallar ticarət və ya icarə üçün deyil, şəxsi istifadə üçün alınıbsa, bu zaman həmin mallara zəkat düşmür.

Müsəlman tacir üçün bu məsələdə ən asan və rahat yol budur ki, ilin müəyyən bir gününü zəkat çıxartması üçün təyin etsin və hər il həmin gün gəldikdə əlində olan malların pul dəyəri ilə sahib olduğu nağd pulun birlikdə zəkatını çıxartsın.

**4. Ev heyvanları:**

Burada nəzərdə tutulan ev heyvanları dəvə, inək və qoyundur.

Bu heyvanlar, əsasən, iki qismə bölünür:

*Birinci qisim:* İlin çox hissəsi sahibi tərəfindən qidalandırılan mal-qara. Bu növ heyvanlara zəkat düşmür. Əgər bu növ heyvanlar sırf ticarət məqsədi ilə saxlanılarsa, bu zaman yuxarıda qeyd

edildiyi kimi, həmin heyvanların zəkatı ticarət əmtəəsinin zəkatına uyğun şəkildə çıxarılmalıdır.

*İkinci qisim:* İlin əksər vaxtını çöldə otlayan və adətən, sahibi tərəfindən qidalandırılmayan heyvanlar. Bu növ heyvanlara aşağıda göstərilən cədvələ müvafiq qaydada zəkat düşür.

**1. Qoyun:**

| Sayı | Zəkat miqdarı |
|---|---|
| 1 - 39 | Zəkat düşmür |
| 40 - 120 | Bir baş qoyun |
| 121 - 200 | İki baş qoyun |
| 201 - 399 | Üç baş qoyun |

Bu saydan etibarən hər yüz qoyuna görə bir baş qoyun zəkat verilir. Deməli, dörd yüz qoyuna görə dörd baş, beş yüz qoyuna görə beş baş qoyun zəkat verilməlidir.

**2. İnək:**

| Sayı | Zəkat miqdarı |
|---|---|
| 1 - 29 | Zəkat düşmür |
| 30 - 39 | Bir yaşı tamamlanmış dana |
| 40 - 59 | İki yaşı tamamlanmış dana |

Bu saydan etibarən hər 30 baş inək üçün bir yaşlı dana, hər 40 baş inək üçün iki yaşlı dana zəkat verilir. Deməli, 60 baş inək üçün iki baş bir yaşı tamamlanmış dana, 80 baş inək üçün iki baş iki

yaşı tamamlanmış dana zəkat verilməlidir. Bu qayda üzrə 90 baş inək üçün üç baş bir yaşlı dana, 100 baş inək üçün isə iki baş bir yaşlı və bir baş iki yaşlı dana zəkat veriləcəkdir.

**3. Dəvə:**

| **Sayı** | **Zəkat miqdarı** |
|---|---|
| 1 - 4 | Zəkat düşmür |
| 5 - 9 | Bir baş qoyun |
| 10 - 14 | İki baş qoyun |
| 15 - 19 | Üç baş qoyun |
| 20 - 24 | Dörd baş qoyun |
| 25 - 35 | Bir yaşı tamamlanmış dəvə |
| 36 - 45 | İki yaşı tamamlanmış dəvə |
| 46 - 60 | Üç yaşı tamamlanmış dəvə |
| 61 - 75 | Dörd yaşı tamamlanmış dəvə |
| 76 - 90 | İki yaşı tamamlanmış iki ədəd dəvə |
| 91 -120 | Üç yaşı tamamlanmış iki ədəd dəvə |

Sayı yüz iyirmini ötən dəvə sürüsünün hər qırx başına görə bir baş iki yaşlı dəvə, hər əlli baş üçün isə bir baş üç yaşlı dəvə zəkat verilməlidir. Misal üçün, 160 baş dəvə üçün dörd baş iki yaşlı dəvə, 130 baş dəvə üçün isə bir baş üç yaşlı və iki baş iki yaşlı dəvə çıxarılmalıdır.

## ☙ On ikinci dərs ❧

# ZƏKAT VERİLƏCƏK ŞƏXSLƏR
~ ~ ~
# FİTRƏ ZƏKATI

• **Zəkat veriləcək şəxslər:** Uca Allah zəkat veriləcək kəsləri bəyan edərək belə buyurur: *"Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri İslam dininə isinən kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah Biləndir, Müdrikdir"* (ət-Tovbə: 60).

**1-2. Kasıb və fəqirlər:** Onlar yemək-içmək, geyim-keçim, ev-eşik kimi zəruri ehtiyaclarını qarşılamaq iqtidarında olmayan kəslərdir. Fəqirlər kasıblara nisbətdə daha çox ehtiyaclı kəslər sayılırlar.

**3. Zəkat işçiləri:** Onlar müsəlman rəhbəri tərəfindən zəkatı toplamaq və bölüşdürmək vəzifəsinə təyin edilmiş kimsələrdir. Onların iş haqları rəhbərin, yaxud məsul şəxsin göstərişi ilə topladıqları zəkatdan verilir.

**4. Qəlbləri İslama isinişənlər:** Bu təbəqəyə İslamı yeni qəbul etmiş və imanları zəif olan əşirət sahibləri və ya İslamı qəbul etmək ehtimalı olan qeyri-müsəlmanlar daxildir. İslamı yeni qəbul edənlərin imanlarını qüvvətləndirmək, kafir olanları isə İslama rəğbətləndirmək qəsdi ilə onlara zəkatdan pay ayrılır.

**5. Kölələr:** Onların köləlikdən azad olmaları üçün zəkat malından köməklik edilir.

**6. Borclu olanlar:** Onlar şəxsi ehtiyaclarına görə borcu olub onu ödəməkdə çətinlik çəkənlər və ya insanların arasında olan anlaşılmazlığı aradan qaldırmaq kimi ümumi bir mənfəət üçün borc altına girən kəslərdir. Belələri zəngin olsalar belə, həmin borcu ödəmələri üçün zəkat malından onlara köməklik edilir.

**7. Allah yolunda cihad edənlər:** Onlar İslam dinini yaymaq, onu müdafiə etmək və Allahın adının uca tutulması üçün Onun yolunda savaşan kəslərdir.

**8. Qəriblikdə qalan müsafir:** Çarəsi kəsilib qərib ölkədə qalan müsafirə zəkat malından köməklik edilir ki, bununla da o öz ölkəsinə qayıda bilsin.

Müsəlman öz malının zəkatını bu təbəqələrdən birinə, yaxud bir neçəsinə sərf edə bilər.

**• Fitrə zəkatı**

Bu, Ramazan orucu bitəndən sonra Allaha şükr əlaməti olaraq çıxarılan zəkat növüdür. Oruc ibadətinin tamamlanması, Ramazan bayramının daxil olması münasibəti və bu bayramda imkanı olmayanlara yardım qəsdi ilə yerli əhalinin əsas qidası hesab olunan düyü, qarabaşaq və sairə bu kimi qida məhsullarından təqribən üç kiloqram fitrə zəkatı çıxarılır.

Fitrə zəkatını həmin qida məhsullarının dəyərində pul şəklində çıxartmaq düzgün hesab edilmir. Yuxarıda da qeyd edildiyi kimi, fitrə zəkatı gərək qida məhsullarından çıxarılsın.

Bayram günü üçün evində bir sutkalıq qida məhsulu olan hər bir müsəlman, istər qadın, yaxud kişi olsun, istərsə də kiçik, yaxud böyük olsun, fərq etməz, fitrə zəkatını çıxartmalıdır. Uşaqların adından fitrə zəkatını onun böyüyü çıxardır. Ananın bətnində olan körpəsinə görə fitrə zəkatını çıxartmaq vacib olmasa da, çıxarılması daha yaxşıdır.

Fitrə zəkatı Ramazan bayramı günü bayram namazından əvvəl çıxarılmalıdır. Bayram günündən bir-iki gün əvvəl də çıxarıla bilər, lakin bayram namazından sonraya təxirə salınması icazəli deyildir.

Ümumiyyətlə, hər bir müsəlman müstəhəb olan könüllü sədəqələri çoxaltmalı və ilin bütün vaxtlarında, xüsusən də Ramazan ayında Allahın rizası üçün köməkliklər etməyə həris olmalıdır. Peyğəmbər ﷺ Qiyamət günü insanların halını vəsf edərək belə demişdir: *“İnsanlar arasında hökm veriləna qədər hər kəs öz sədəqəsinin kölgəsində kölgələnəcəkdir”* (Hakim).

## ☙ On üçüncü dərs ❧

# İSLAMIN DÖRDÜNCÜ RÜKNÜ: ORUC TUTMAQ

Orucun mənası Allaha ibadət etmək qəsdi ilə sübh əzanının vaxtından günəş batana qədər yemək, içmək, cinsi yaxınlıq və orucu pozan digər amillərdən imtina etməkdir. Oruc tutmaq İslamın dördüncü rüknüdür və ən əfzəl ibadətlərdən sayılır. Çünki oruc tutan Allah üçün yeməyi, içməyi və digər dünya ləzzətlərini tərk edir. Uca Allah orucu əmr edərək belə buyurmuşdur: *"Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə, təqvalı olasınız"* (əl-Bəqərə: 183). Peyğəmbər ﷺ isə "*İslam beş əsas üzərində qurulmuşdur*", – demiş və həmin əsaslardan biri olaraq da oruc tutmağı qeyd etmişdir. Hər bir müsəlman bu ibadətə ehtimam göstərməli, onu tərk etməməli və orucu pozacaq, yaxud onun savabını azaldacaq işlərdən uzaq durmalıdır.

Ramazan ayı gəldikdə həddi-büluğa çatmış, ağlı başında və oruc tutmağa qadir olan hər bir müsəlman Ramazan ayını oruc tutacağına dair dili ilə tələffüz etmədən qəlbi ilə niyyət etməlidir. Həmçinin Ramazan ayının hər gecəsi səhəri günün orucu üçün axşamdan niyyət etməli və bu mübarək ayın hər gününü əskiksiz oruc tutmalıdır.

Yetkinlik yaşına çatmamış uşaqlara, habelə ağlı başında olmayan kəslərə oruc tutmaq və tutmadıqları orucların qəzasını etmək vacib deyildir. Xəstəlik, yaxud qocalıq səbəbi ilə oruc tuta bilməyənlər, habelə müsafir olanlar oruc tutmaya bilərlər, lakin üzrləri aradan qalxdıqdan, yəni sağaldıqdan və ya səfərdən qayıtdıqdan sonra tutmadıqları günlərin əvəzinə oruc tutmalıdırlar.

Heyzli və nifaslı qadınlar isə bu halları ilə oruc tuta bilməzlər. Heyz və nifasdan təmizləndikdən və Ramazan ayından sonra tutmadıqları günləri qəza etməlidirlər.

Orucun vaxtı Ramazan ayının hər günü sübh əzanının vaxtından günəş batana qədərdir.

Ümumiyyətlə, Ramazan ayında hər bir müsəlman ibadət və itaətini çoxaltmalıdır. Kasıblara əl tutmalı, çoxlu Quran oxumalı, Rəbbinə dualar etməli, Rəbbini zikr etməli, tövbə və istiğfar ilə Rəbbinə yönəlməli və Ramazanın gecələrini ibadət ilə keçirməlidir. Həmçinin səhuru, yəni Ramazanın obaşdan yeməyini sübh əzanına yaxın, iftarı isə məğrib əzanından həmən sonra etmək müstəhəbdir.

**• Orucu pozan amillər**

Oruc ibadətini pozan müəyyən amillər mövcuddur. Oruc tutan şəxs bunlardan birini bilərəkdən, unutqanlığa yol vermədən, öz ixtiyarı ilə edərsə, onun orucu pozulmuş sayılar və həmin günün orucunu Ramazan ayından sonra mütləq qəza etməlidir.

Orucu pozan amillər aşağıdakılardır:

**1. Yemək və içmək:** Kim Ramazanın gündüzləri bilərəkdən yeyər və ya içərsə, onun orucu batil olar və həmin günün qəzasını tutmalıdır. Amma kim unudaraq yeyər və ya içərsə, onun orucu batil olmaz, lakin oruclu olduğunu xatırladığı an həmən yeməyi və ya içməyi dayandırmalı və orucuna davam edərək həmin günün orucunu tamamlamalıdır. Onu da qeyd edək ki, xəstəyə damar yolu ilə vurulan qidalandırıcı dərmanlar da orucu pozan amillərdən hesab olunur.

**2. Cinsi yaxınlıq:** Ramazan gündüzləri cinsi münasibətdə olmaq da orucu pozan amillərdəndir. Belə bir hal baş verdikdə həm o günün qəzası tutulmalı, həm də qəza ilə birlikdə bu əməlin kəffarəsi – cəzası ödənməlidir. Kəffarəsi isə müsəlman bir köləni azad etməkdir. Azad etməyə kölə tapmayan şəxs iki ay ara vermədən sərasər oruc tutmalıdır. Bunu da bacarmadığı halda, altmış kasıbı, hər birinə yerli əhalinin əsas qida məhsullarından yarım saa (təxmini 1.5 kq) olmaqla yedizdirməlidir.

**3. Spermanın bilərəkdən ifrazı:** Qadına toxunmaq, öpmək, masturbasiya və ya digər səbəblərlə spermanın ifraz olması orucu pozur. Belə olan halda həmin günün qəzası tutulmalıdır, kəffarəyə ehtiyac yoxdur. Yuxuda ehtilam olanın isə orucu pozulmur.

**4. Qan aldırmaq:** Həcamət – müalicə məqsədi ilə bədəndən qan aldırmaq, yaxud xəstələrə qan ianə etmək və bu kimi hallar orucu pozur. Belə halda həmin günün qəzası tutulmalıdır. Yaradan axan az miqdarda qanın, yaxud qan analizinin və bu kimi halların oruca heç bir təsiri yoxdur.

**5. Qəsdən qusmaq:** Bilərəkdən qusmaq orucu pozur və həmin günün qəzası tutulmalıdır. Qeyri-ixtiyari qusmaq isə orucu pozmur.

**6. Heyz və nifas qanının gəlməsi:** Heyz və ya nifas qanı gəldikdə həmin günün orucu pozulur, qan kəsilənə qədər qadın orucu dayandırmalıdır, çünki bu halda o, üzrlü sayılır və buna görə ona heç bir günah yazılmır. Qan kəsildikdən sonra qadın yenidən oruca başlamalı və Ramazanın yerdə qalan günlərini oruc tutmalıdır. Tutmadığı günləri isə Ramazan ayından (bayramdan) sonra qəza etməlidir.

## ~ On dördüncü dərs ~

# ORUCUN QƏZASI və KÖNÜLLÜ ORUCLAR

**• Orucun qəzası**

Kim Ramazan ayında xəstəlik, səfər, heyz və nifas kimi üzrlü bir səbəbə görə, yaxud bilərəkdən yemək, içmək və ya cinsi münasibətdə olmaq kimi üzrsüz bir səbəbə görə orucunu pozarsa, həmin günlərin sayı qədər qəza orucu tutmalıdır. Yaxşıdır ki, qəza orucu gecikdirilməsin, əksinə, tezləşdirilsin ki, bəndənin boynunda olan yük tez ödənmiş olsun. Üzrsüz səbəbə görə qəza orucunu növbəti Ramazana qədər təxirə salmaq icazəli deyildir. Heç bir üzrü olmadığı halda, orucunu pozan adam isə böyük günah işlətdiyi üçün qəza orucu ilə yanaşı, həm də Allaha tövbə etməlidir.

Qocalığı və ya daimi xəstəliyi səbəbi ilə oruc tutmaqda aciz olan insanlara Uca Allah oruc tutmamaq üçün icazə vermişdir. Bu qəbildən olan insanlar oruc tutmaq yerinə hər günün əvəzində bir nəfər kasıbı yerli əhalinin əsas qida məhsullarından yarım saa (təxmini 1.5 kq) olmaqla yedizdirməlidirlər.

Hamilə və südverən qadınlar isə özlərinin və ya uşaqlarının həyatlarına, yaxud sağlamlıqlarına qarşı real bir təhlükə hiss etdikdə oruclarını pozaraq, daha sonra həmin günün qəzasını tuturlar.

**• Müstəhəb (könüllü) oruclar**

Uca Allah Ramazan ayından başqa digər günlərdə də oruc tutmağa təşviq etmişdir. Lakin bu orucları bəndələri üçün icbari deyil, ixtiyari etmişdir. Bəndə bu növ orucları tutmaqla həm Ramazan orucunda yol verdiyi nöqsan və xətaları aradan qaldırmış, həm də əlavə əcr və savab qazanmış olur.

Həmin könüllü oruclardan bəziləri aşağıdakılardır:

**1. Şəvval ayının altı günü:** Bu haqda Peyğəmbər ﷺ belə demişdir: *"Kim Ramazan ayını, ardınca Şəvval ayının altı gününü oruc tutarsa, bir il oruc tutmuş hesab edilər"* (Müslim).

**2. Ərəfə günü (Zilhiccə ayının doqquzuncu günü):** Peyğəmbər ﷺ belə demişdir: *"Ərəfə günü oruc tutmaq keçmiş və gələcək ilin günahlarını silər"* (Müslim).

**3. Aşura günü (Muhərrəm ayının onuncu günü):** Peyğəmbər ﷺ belə demişdir: *"Aşura günü oruc tutmaq keçmiş ilin günahlarını silər"* (Müslim). Daha yaxşı olar ki, bu günlə birlikdə ya ondan bir gün əvvəl, yaxud ondan bir gün sonra (yəni ya Muhərrəm ayının doqquzu və onu, ya da onu və on biri) oruc tutulsun.

Peyğəmbər ﷺ oruc ibadətinin fəziləti barədə belə demişdir: *"Uca Allah Onun rizası üçün bir gün oruc tutan bəndəni həmin gün səbəbi ilə Cəhənnəm odundan yetmiş il uzaq tutar"* (Buxari və Müslim).

**• Qadağan olunmuş oruclar**

Peyğəmbər ﷺ şəkk günü[1] – Şaban ayının otuzuncu günü oruc tutmağı qadağan etmişdir. Bu qadağadan yalnız ayın və ya ilin müəyyən günlərini oruc tutmağa adət etmiş və həmin tutduğu orucu bu günə təsadüf edən kəslər istisnadır. Həmçinin Peyğəmbər ﷺ Qurban və Ramazan bayramı günləri də oruc tutmağı qadağan etmişdir. Təşriq günləri, yəni Zilhiccə ayının 11, 12 və 13-ü oruc tutmaq da icazəli deyildir. Təşriq günlərində yalnız üzərinə qurban kəsməsi vacib olub, amma qurban kəsə bilməyən hacılar (yəni həcdə olanlar) oruc tuta bilərlər.

Cümə günü məxsusi olaraq oruc tutmaq bəyənilmir. Lakin hər hansı bir müstəhəb oruc, məsələn, Ərəfə gününün orucu bu günə təsadüf edərsə, o zaman oruc tutmaqda bir qəbahət yoxdur. Həmçinin Cümə günü ilə birlikdə dördüncü gün, yaxud altıncı gün oruc tutularsa, bu da icazəlidir.

❁ ❁ ❁

[1] Ramazan ayının başlayıb-başlamaması haqqında şəkk edilən gün.

## ☙ On beşinci dərs ❧

# İSLAMIN BEŞİNCİ RÜKNÜ: HƏCC ETMƏK

Həcc Allaha ibadət qəsdi ilə Peyğəmbərdən ﷺ öyrənilən müəyyən ifadə və hərəkətlərin icra edilməsi üçün ilin müəyyən vaxtında Məkkə şəhərinə gəlməkdir. Həcc etmək İslamın beşinci rüknüdür və ən əfzəl ibadətlərdən sayılır. Belə ki, müsəlman birisi digər müsəlman qardaşları ilə birlikdə bu ibadəti yerinə yetirməsi üçün öz vətənini və yaxınlarını müvəqqəti tərk edərək Məkkə şəhərində yerləşən müqəddəs yerlərə səfər edir. Həcc mövsümündə irqindən, rəngindən, yaşından asılı olmayaraq, böyük və kiçik, zəngin və kasıb, kişi və qadın – hər kəs böyük bir izdihamla bu ibadəti yerinə yetirmək və Uca Allaha yaxınlaşmaq üçün bir yerə toplanır. Onların arasında heç bir fərq tapa bilmirsən, onların bir-birlərinə qarşı olan üstünlükləri yalnız və yalnız təqvalarına – ibadət və itaətlərinə görədir. Uca Allah həcci əmr edərək belə buyurmuşdur: *“Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi (Kəbəni) ziyarət etməsi insanların Allah qarşısında borcudur”* (Ali-İmran: 97). Peyğəmbər ﷺ isə *“İslam beş əsas üzərində qurulmuşdur”*, – demiş və həmin əsaslardan biri olaraq da həcc etməyi qeyd etmişdir.

Maddi və sağlamlıq baxımından gücü çatan hər bir müsəlmanın ömründə bir dəfə həcc və ümrə etməsi vacibdir.

Həcc və ya ümrə etmək istəyən biri, ilk növbədə, miqatda[1] ehrama girməlidir. Yəni həcc və ya ümrə ibadətinə görə ayrı-ayrılıqda, yaxud hər iki ibadət üçün birlikdə qəlbində niyyət etməli və ehram libasını geyinməlidir. Ehrama girdikdən sonra (edilən ibadətin növündən asılı olaraq) bu ifadələrdən biri deyilməlidir:

*“Ləbbəykə Allahummə həccən” (mənası: Allahım, çağırışına cavab verərək həcc edirəm);*

[1] Hacıların ehrama girdikləri yer.

*“Ləbbəykə Allahummə umrətən” (mənası: Allahım, çağırışına cavab verərək ümrə edirəm);*

*“Ləbbəykə Allahummə həccən və umrətən” (mənası: Allahım, çağırışına cavab verərək həcc və ümrə edirəm).*

Daha sonra Məkkə şəhərinə getməli və Kəbəni təvaf etməlidir. Təvafdan sonra Səfa və Mərva təpələri arasında (yeddi dəfə) gedib-gəlməlidir. Bunları etdikdən sonra əgər Təməttü həcci edən biridirsə, saçını qırxmalıdır. Daha sonra həcc ibadətini tamamlamaq üçün sırasilə Ərafaya, Müzdəlifəyə, Minaya gedilir və Cəmarata daş atılır. Ümumiyyətlə, həccin və ümrənin digər əməlləri də vardır ki, həcc və ya ümrə etmək istəyən hər bir kəs bütün bunları öyrənməlidir.

## On altıncı dərs

# İSLAMDA MALİYYƏ ƏMƏLİYYATLARI

İslam dini Allah ilə bəndə arasındakı əlaqəni ibadətlər ilə tənzimlədiyi kimi, insanların öz aralarında olan əlaqələrini də nikah, alqı-satqı və bu kimi əməliyyatlarla tənzimləyir. Belə ki, İslam dini insanlar üçün ümumi qanunlar və hər şeyi əhatə edən qaydalar təyin etmiş, bununla da onların bir-birlərinə qarşı olan haqq və hüquqlarını tənzimləmişdir. Beləcə onlar şəriətin ali məqsədlərindən biri olan *“təqvaya səbəb olan işlərdə və saleh əməllərdə yardımlaşmaq, asilik və düşmənçilikdən isə uzaq durmaq”* müddəasına doğru irəliləmiş olurlar.

*“Allah alış-verişi halal etmişdir”* (əl-Bəqərə: 275) ayəsinə əsasən, bütün maliyyə əməliyyatlarının əsli halal və icazəlidir. Yalnız öz-özlüyündə haram olanlar və qazancına görə haram sayılanlar istisnadır.

İslam dini işləməyə və halal yollarla qazanc əldə etməyə təşviq edir. Uca Allah belə buyurur: *“Namaz başa çatdıqdan sonra yer üzünə dağılıb Allahın lütfündən ruzi axtarın və Allahı çox zikr edin ki, bəlkə, nicat tapasınız”* (əl-Cumuə: 10). Həmçinin Peyğəmbər ﷺ və onun əshabı da alqı-satqı ilə məşğul olar və öz əllərinin zəhməti ilə dolanardılar.

- **Alqı-satqının şərtləri**

Maliyyə əməliyyatının özünəməxsus şərtləri vardır. Alqı-satqı məhz bu şərtlər əsasında doğru hesab edilir. Həmin şərtlər aşağıdakılardır:

1. Satıcı ilə müştəri arasında ortaq razılıq.
2. Həm satıcı, həm də müştərinin yetkinlik yaşına çatmış və ağlı başında olan birisi olması. Yetkinlik yaşına çatmasa belə, ağlı başında olan azyaşlıların yüngün alış-veriş işləri də keçərli hesab edilir. Lakin azyaşlının ən azı təmyiz yaşına çatması şərtdir. Təmyiz yaşı dedikdə isə söz başa düşən, özünü idarə edə bilən azyaşlılar (təxmini 6-7 yaş və yuxarısı) nəzərdə tutulur.

3. Satılacaq və alınacaq olan şeyin satıcı və alıcı tərəfindən bilinən bir şey olması, məchul olmaması, habelə həmin şeyin satıcı tərəfindən müştəriyə təslim edilməsinin mümkünlüyü.

4. Satıcının satılacaq olan şeyə sahib olması və ya onu satmağa icazəsinin olması. Həmçinin alıcının da xərcləyəcəyi pula sahib olması və ya başqasının pulu ilə alış-veriş edəcəyi təqdirdə, icazəsinin olması.

5. Şərab, siqaret, donuz əti, leş, çalğı alətləri kimi öz-özlüyündə haram olan şeylərin ticarəti də haram sayılır və keçərsiz hesab edilir.

Yuxarıda qeyd olunan şərtlər əsasında edilən ticarət doğru və keçərlidir.

**• Maliyyə əməliyyatlarında haram olan işlər**

Hər bir müsəlmana alqı-satqı işlərində haram olan şeylərdən uzaq durması vacibdir. Həmin şeylərə misal olaraq aşağıdakıları qeyd etmək olar:

1. Sələm. Çünki Uca Allah belə buyurur: *“Allah alış-verişi halal, sələmi isə haram etmişdir”* (əl-Bəqərə: 275). Sələmin bir neçə növü vardır. Lakin ən çox rastlanan və insanların da ən çox giriftar olduqları növü bankdan, yaxud fərdi şəxsdən borc almaq, onu qaytardıqda isə borcla birlikdə üstündə artıq pul verməkdir.

2. Yalan və hiyləgərlik. Çünki Peyğəmbər ﷺ belə demişdir: *“Bizi aldadan bizdən deyildir”* (Müslim).

3. Ziyan (risk) və müəmmalılıq ehtiva edən ticarət növləri. Çünki Peyğəmbər ﷺ ziyan (risk) ehtiva edən ticarəti qadağan etmişdir (Müslim).

Gərək hər bir müsəlman özündə bu kimi haram işləri ehtiva edən maliyyə əməliyyatlarından uzaq dursun. Ticarət ilə məşğul olan kəslər isə harama əl sürtməmək və haram yolla gəlir əldə etməmək üçün gərək ticarət ilə əlaqəli olan şəriət qaydalarını öyrənsinlər. Uca Allah belə buyurur: *“Mallarınızı öz aranızda haqsızlıqla yeməyin”* (əl-Bəqərə: 188). Peyğəmbər ﷺ isə belə demişdir: *“Haramla bəslənən bədən Cənnətə girməyəcəkdir. Belə birisinə Cəhənnəm daha layiqdir”* (Əhməd və Hakim).

❁ ❁ ❁

## On yeddinci dərs

# İSLAMDA EVLİLİK

Evlilik Uca Allahın məxluqatı üçün təyin etdiyi və bütün canlı aləmi əhatə edən ilahi bir nizamdır. Uca Allah insanın qədir-qiymətini uca tutmuş, onu digər varlıqlardan fərqləndirmiş və başqa varlıqlar kimi mücərrəd instinkt üzərində yaratmamışdır. Əksinə, onun üçün şərəfini qoruyacaq, hörmətini uca tutacaq, şəninə layiq bir nizam təyin etmişdir. Bu nizam da şəriətə müvafiq olan evlilik nizamıdır. Şəri nikah kişi ilə qadın arasında olan əlaqəni xoş ünsiyyət, sevgi və məhəbbət üzərində qurur və bu bağı dəyərli bir bağ halına gətirir. Bununla da insanın nəsli qorunmuş, cinsi ehtiyacı səlim yol ilə ödənmiş, habelə qadın da hər yoldan ötən üçün istismar alətinə çevrilməmişdir.

Uca Allah buyurur: *“Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətlər vardır”* (ər-Rum: 21).

Peyğəmbər ﷺ belə demişdir: *“Ey gənclər! Sizdən evlənməyə gücü çatan qoy evlənsin!”* (Buxari və Müslim)

Gərək müsəlman evlilik üçün əlini tez tutsun, xüsusən də fitnə-fəsadın çox olduğu, zinaya və bu kimi haram əlaqələrə düşmək təhlükəsi olan ölkələrdə.

Müsəlman kişi özünə əxlaqlı, inanclı, ərini sevəcək və onun üçün övladlar dünyaya gətirə biləcək bir qadın seçməlidir. Qadın da, öz növbəsində, gərək əxlaqlı və inanclı birinin evlilik təklifini rədd etməsin. Beləcə ər-arvad arasında sevgi və ülfət, habelə ailə səadəti hasil olmuş və şəriətin ali məqsədləri öz yerini tapmış olar.

**• Nikahın şərtləri**

Nikahın şərtləri vardır. Nikah bu şərtlər əsasında doğru hesab edilir. Həmin şərtlər aşağıdakılardır:

1. Kişi və qadın arasında ortaq razılıq. Belə ki, gələcəkdə ər-arvad arasında sevgi və məhəbbətin, habelə xoş ünsiyyətin

yaranması üçün evlilik zamanı kişi və qadının ortaq razılığı şərt hesab edilir.

2. Qadının vəlisinin (atası, babası və s.) icazəsi. Peyğəmbər ﷺ belə demişdir: *"Vəlisiz nikah etibarlı sayılmır"* (Əbu Davud və Tirmizi). Bu, qadının haqlarının hifzi üçün, habelə ona əziyyət vermək, ondan sui-istifadə etmək və onu bu evlilik ilə aldatmaq istəyən pis niyyətli insanların şərindən qorumaq üçün önəmlidir.

3. Nikahda şahidlik. Nikahın doğru hesab edilməsi üçün iki ədalətli kişinin şahidliyi labüddür.

**• Kişinin məhrəmləri**

Müsəlman kişi ona məhrəm olmayan hər hansı bir müsəlman, yaxud iffətli yəhudi və ya xristian bir qadınla evlənə bilər.

Kişiyə məhrəm sayılan, yəni onunla evlənməsi əbədi haram edilmiş qadınlar aşağıdakılardır:

1. Doğma ana və nənələr;
2. Doğma qız və qız nəvələr;
3. Doğma bacılar;
4. Qardaşın qızları;
5. Bacının qızları;
6. Doğma bibilər;
7. Doğma xalalar.

Həmçinin süd anası, süd bacısı, süd qızı, süd xalası, süd bibisi və s. bu kimi süd yolu ilə məhrəm olanlarla da evlənmək qəti qadağandır.

Eyni vaxtda iki bacı ilə evlənmək, yaxud qadınla birgə onun bibisi və ya xalası ilə, habelə eyni vaxtda dörddən artıq qadınla nikaha girmək də qəti olaraq qadağandır.

Müsəlman bir qadının dinindən asılı olmayaraq, istər kitab əhlindən (xristian və ya yəhudi) olsun, istərsə də bütpərəst və ya ateist, fərq etməz, müsəlman olmayan bir kişi ilə ailə həyatı qurması haramdır.

İffətli bir kişinin tövbə etmədiyi təqdirdə, zinakar bir qadınla ailə həyatı qurması haram olduğu kimi, ismətli bir qadının da tövbə etmədiyi təqdirdə, zinaya qurşanmış əxlaqsız bir kişi ilə evlənməsi icazəli deyildir.

## • Evlilik ilə əlaqəli mühüm tövsiyələr

Kişinin evlənəcəyi qadına – qıza mehr verməsi vacibdir. Mehr dedikdə kişinin evlilik münasibəti ilə qadına verdiyi və bununla da onun könlünü xoş etdiyi maddi bir məbləğ, yaxud qiymətli zinət əşyası nəzərdə tutulur.

Həmçinin yaxşıdır ki, kişi evlilik münasibəti ilə özünü çox xərcə salmadan münasib bir toy məclisi təşkil etsin və öz sevdiklərini, dost-tanışını və qohum-əqrəbasını həmin məclisə dəvət etsin.

## • Ər və arvadın haqları

Həm ər, həm də arvad bir-birlərinə qarşı itaətkar olmalı, aralarında olan sevgi və məhəbbəti, xoş ünsiyyəti qoruyub saxlamalı və bir-birlərinə əziyyət verməməlidirlər.

Kişi daima öz yoldaşını qorumalı, onun geyim-keçimini, dolanışığını, ev-eşiyini təmin etməli, onunla yumşaq və nəzakətli davranmalıdır. Ona və onun ailəsinə hörmət etməlidir. Əsəbi halında könlünü almağa və qəzəbli olduqda onunla həlim davranmağa səy göstərməlidir. Peyğəmbər ﷺ belə demişdir: *“Qadınlara qarşı xeyirxah olun!”* (Müslim); *“Sizin ən xeyirliniz ailəsinə qarşı xeyirxah olandır. Mən də içinizdə ailəsinə qarşı ən xeyirli olanam”* (Tirmizi, İbn Macə və İbn Hibban).

Qadın da, öz növbəsində, ərinə qarşı itaətkar olmalı, onun qulluğunda durmalı, evinə baxmalı və övladlarının tərbiyəsi ilə məşğul olmalıdır. Ərini daima gülərüzlə və xoş qarşılamalıdır. Peyğəmbər ﷺ belə demişdir: *“Əgər qadın gündəlik beş vaxt namazını qılar, Ramazan orucunu tutar, öz namusunu qoruyar və ərinə itaət edərsə, (Qiyamət günü) ona belə deyilər: Cənnətə istədiyin qapısından daxil ol!”* (Əhməd və İbn Hibban)

Qadınla arxadan cinsi münasibətdə olmaq, habelə heyzli və nifaslı halında onunla cinsi əlaqə qurmaq qəti qadağandır. Heyzli və nifaslı halında cinsi əlaqədə olmamaq şərtilə kişi öz yoldaşı ilə münasibət qura bilər.

❁ ❁ ❁

## ❧ On səkkizinci dərs ❧

# QİDALAR

Bütün yeyəcək və içəcəklərin əsli halal və icazəlidir. Uca Allah belə buyurur: *“Ey insanlar! Yer üzündə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir”* (əl-Bəqərə: 168).

İnsanın səhhəti üçün zərərli olmayan əkin və bağ, habelə ət və süd məhsulları, bir sözlə, pak və zərərsiz olan bütün növ yeyəcək və içəcəklər halal və icazəlidir.

**• İstifadəsi haram olan məhsullar**

1. Şəriətin haram olduğunu bəyan etdiyi xüsusi növ heyvanlar. Məsələn: donuz əti, uzunqulaq əti və Allahdan qeyrisi üçün kəsilmiş bütün heyvanların əti.

2. Nəcis olan hər bir şey. Məsələn: leş, qan və s.

3. Zərərli olan hər bir şey. Məsələn: zəhər, şərab, narkotik maddələr, siqaret və s.

4. Köpək dişi olan hər bir ət yeyən heyvan və caynaqlı bütün növ quşlar. Məsələn: aslan, qartal və s. heyvanlar.

5. Şəriət tərəfindən öldürülməsi əmr edilən, yaxud öldürülməsi qadağan edilən bütün heyvanlar. Məsələn: ilan, siçan, it, qarğa, qurbağa və s.

Uca Allah Peyğəmbəri ﷺ barədə xəbər verərək belə buyurur: *“Onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər”* (əl-Əraf: 157). Başqa bir ayədə isə belə buyurur: *“O sizə ölü heyvanı, qanı, donuz ətini və Allahdan başqası üçün kəsilən heyvanların ətini haram etmişdir”* (əl-Bəqərə: 173).

**• Şərabın hökmü**

Bu əzəmətli din insanlara onların mənfəəti üçün olan şeyləri əmr etmək və onların zərərinə olanları isə qadağan etmək üçün gəlmişdir. İslam dininin qəti şəkildə qadağan etdiyi əməllərdən biri də şərab içməkdir. Çünki bu əməl insanı Allahın özünə ağıl neməti

bəxş etdiyi ali bir varlıq olmaqdan çıxarıb, onu ağlı olmayan məxluqların səviyyəsinə salır. Uca Allah bu barədə belə buyurur: *"Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, ibadət məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız"* (əl-Maidə: 90). Peyğəmbər ﷺ belə demişdir: *"Hər sərxoşedici şərabdır və belə şərabların hamısı haramdır"* (Müslim); *"Allahın lənəti olsun şəraba, onu içənə, süzənə, satana, alana, düzəldənə, düzəltdirənə, daşıyana və sifariş edənə"* (Əbu Davud).

Uca Allah şəraba aludəçilik edərək tövbə etmədən ölənlər üçün şiddətli əzab hazırlamışdır. Bunun səbəbi isə şərabın insan üzərində olan pis təsirləridir. Onlardan bəziləri aşağıdakılardır:

1. Şərab içmək insanı namazdan, Allahı yad etməkdən və Ona itaətkarlıq göstərməkdən uzaqlaşdırır.

2. Şərab içmək insanı digər məxluqlardan üstün edən ağıl nemətini onun əlindən alır. Beləcə şərabın təsiri altında insanın həm özünə, həm də ətrafındakılara qarşı bir çox fəsadlar baş verir.

3. Şərab içmək ürək, ciyər və xərçəng xəstəlikləri kimi bir çox xəstəliklərə səbəb olur.

**• Şəriətə müvafiq kəsim qaydası**

Yuxarıda da qeyd edildiyi kimi, dəvə, inək, qoyun, toyuq-cücə və bu kimi əti təmiz olan heyvanların yeyilməsi icazəlidir. Lakin bu növ heyvanların halal olması üçün mütləq onları şəriət qaydalarına müvafiq kəsmək lazımdır. Həmin qaydalar aşağıdakılardır:

1. Heyvanı kəsənin müsəlman, yaxud kitab əhli (yəhudi və ya xaçpərəst) olması.
2. Kəsim işi bıçaq kimi iti bir alət ilə olmalıdır.
3. Kəsim zamanı mütləq heyvanın qanı axmalıdır.
4. Heyvanın boğazı və qida borusu kəsilməlidir.
5. Bıçağı heyvanın boğazına çəkərkən *"Bismilləh"* demək lazımdır.

Əgər heyvanın şəriət qaydalarına müvafiq kəsilmədiyini, məsələn: boğularaq, başına vurularaq və ya elektroşokdan istifadə

ediləræk öldürüldüyünü, yaxud onu kəsənin bütpərəst və ya ateist birisi olduğunu, yaxud kəsim zamanı *“Bismilləh”* deyilmədiyini dəqiq bilsək, ya da böyük ehtimalla bu qənaətə gəlsək, o zaman həmin heyvanın ətindən yemək icazəli deyildir.

❁ ❁ ❁

## ❧ On doqquzuncu dərs ☙

# MÜSƏLMANIN ƏXLAQI

İslam dini insanları əxlaqlı olmağa təşviq etmiş, gözəl əxlaqın prinsiplərinə səsləmiş və gözəl əxlaqlı kəslərə böyük əcr və savab vəd etmişdir. Peyğəmbər ﷺ bu haqda belə demişdir: *"Sizin ən xeyirliniz əxlaqı ən gözəl olandır"* (Buxari və Müslim); *"(Qiyamət günü) Tərəziyə qoyulan əməllər arasında gözəl əxlaq qədər ağır gələni yoxdur"* (Əbu Davud və Tirmizi); *"Gözəl əxlaq sahibi öz əxlaqı ilə çoxlu oruc tutan və namaz qılanların dərəcəsinə yüksələcəkdir"* (Əhməd və Əbu Davud).

İslam əxlaq dinidir və gözəl əxlaqdan başqasına razı olmaz. Elə bir gözəl əxlaq prinsipi yoxdur ki, İslam dini insanları ona səsləməsin və elə bir pis xüsusiyyət də yoxdur ki, İslam dini insanları ondan çəkindirməsin.

İslam dini insanları doğruluğa, həyalı və əliaçıq olmağa, təvazökarlığa, insanlara qarşı mərhəmətli və rəhmli olmağa, həlim xislətli, yumşaq xasiyyətli, ədalətli və şücaətli olmağa, insanlara daima yaxşılıq etməyə, əmanəti qorumağa, vəfalı və səbirli olmağa, zahidliyə, insanlar barədə daima yaxşı fikirdə olmağa, gözü haramdan qorumağa, yaxşılığı əmr edib pisliklərdən çəkindirməyə və bu kimi gözəl əxlaq əsaslarına təşviq etmişdir.

Həmçinin bu əzəmətli din insanları hiyləgərlikdən, yalandan, qeybət və nəmmamlıqdan, həsəd və paxıllıqdan, zəif və fəqirləri alçaltmaqdan, xəyanətdən, qəzəbdən, zülm etməkdən, vədə xilaf çıxmaqdan, bədbinlikdən və bu kimi xoşagəlməz xüsusiyyətlərdən çəkindirmişdir.

İslam dini müsəlmanın müsəlman və ya qeyri-müsəlman olsun, fərq etməz, digər insanlarla olan münasibətini də tənzimləmişdir. Buna misal olaraq aşağıdakıları qeyd etmək olar:

**1. Valideynə münasibət:** Uca Allah müsəlmana öz valideyninə qarşı itaətkar olmağı, daima onlara yaxşılıq etməyi və onların qəzəbinə səbəb olacaq əməllərdən uzaq durmağı əmr etmişdir. Uca Allah bu barədə belə buyurur: *"Rəbbin yalnız Ona*

*ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı əmr etmişdir. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına çatarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: "Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!"– de"* (əl-İsra: 23-24). Uca Allah valideynləri tərəfindən küfrə sövq edilən müsəlman barədə xəbər verərək belə buyurur: *"Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etməyə cəhd göstərsələr, onlara (bu məsələdə) tabe olma! (Qalan) dünya işlərində isə onlarla gözəl keçin!"* (Loğman: 15) Bir gün Peyğəmbərimizə ﷺ "Allaha ən sevimli əməl hansıdır?" deyə sual verilmiş, o da *"öz vaxtında qılınan namazdır"*, – dedikdə, "bəs ondan sonra hansı əməldir?" deyə soruşmuşlar. Peyğəmbərin cavabı isə belə olmuşdur: *"Valideynə qarşı itaətkar olmaqdır"* (Buxari və Müslim).

**2. Övladlara münasibət:** Uca Allah müsəlmana böyüyənəcən övladlarına baxmağı, onların qayğısını çəkməyi, onları İslam tərbiyəsilə tərbiyələndirməyi, onlara qarşı mərhəmətli olmağı, onların əziyyətlərinə səbir etməyi və onların mənfəəti üçün çalışmağı əmr etmişdir.

**3. Həyat yoldaşına münasibət:** Uca Allah ər-arvada bir-birlərinə qarşı xoş davranmağı, itaət etməyi, sevgi və məhəbbət bəsləməyi, gözəl ailə ünsiyyətində olmağı və bir-birlərinə əziyyət verməməyi əmr etmişdir.

**4. Qohum-əqrəbaya münasibət:** Uca Allah qohumluq əlaqələrini möhkəmləndirməyi, qohumlara qarşı xeyirxah olmağı, habelə qohumlar arası ziyarətləşməni əmr etmiş və bütün bunları ruzi-bərəkətin bol, həyatın isə firavan olması üçün bir vəsilə etmişdir.

**5. Qonşulara münasibət:** İslam dini qonşular arasında xoş münasibəti, qonşuya qarşı xeyirxah olmağı, daima onlara yaxşılıq etməyi və qonşuluq münasibətlərinə xələl gətirəcək hər bir əməldən uzaq durmağı əmr etmiş və bütün bunları imandan saymışdır.

**6. İslam alimlərinə münasibət:** İslam dini alimlərə hörmət etməyi, onların şənini uca tutmağı, onlar barədə daima gözəl zəndə olmağı, onlara layiq olduqları dəyər-qiyməti verməyi və dinin hökmlərini öyrənmək üçün daima onlara müraciət etməyi əmr etmişdir. Peyğəmbər ﷺ belə demişdir: *"Alimlər peyğəmbərlərin varisləridirlər"* (Əbu Davud və Tirmizi).

İslam dini nəinki müsəlmanın insanlarla, hətta heyvanlarla və ətraf mühitlə olan münasibətini də tənzimləmişdir. Belə ki, bu əzəmətli din heyvanlara qarşı xeyirxah olmağı, onları yedirtməyi və onlara əziyyət verməməyi, habelə ətraf mühiti qorumağı, gözəlləşdirməyi və ətraf mühitə ziyan vurmamağı əmr etmişdir.

## ❧ İyirminci dərs ☙

# ƏKSƏR MÜSƏLMANLARIN MÜBTƏLA OLDUĞU GÜNAHLAR

Uca Allah qullarını Özünə ibadət etmək üçün xəlq etmiş, onlar üçün şəriətlər təyin etmiş, hüquq və qanunlar qoymuş, habelə bəzi şeyləri onlara yasaq etmişdir. Bütün bunlar isə ali məqsədlərə qulluq edən və böyük hikmətlər üzərində bina edilmiş şeylərdir. Necə də belə olmasın?! Axı Uca Allah hər şeyi bilən, sonsuz hikmət sahibidir!

Qulluğunda Rəbbinə qarşı sadiq olan hər bir müsəlman Uca Allahın saleh bəndələrindən ola bilməsi üçün Onun qoyduğu qanunları pozmamalı və qadağan etdiyi hər bir şeydən də uzaq durmalıdır. Şübhəsiz ki, belələrinə Cənnət mükafatı vardır. Uca Allah belə buyurur: *"Hər kim Allahın haram buyurduqlarına hörmət etsə, bu, Rəbbi yanında onun üçün daha xeyirli olar"* (əl-Həcc: 30).

Lakin çox təəssüflər olsun ki, Uca Allahın qadağan etdiyi bəzi əməllər vardır ki, bir çox müsəlman həmin qadağalara qarşı laqeydlik göstərir və Uca Allahın haram buyurduqlarına hörmət etməyərək həmin asiliklərə yol verirlər.

Bu növ haramlara misal olaraq aşağıdakıları qeyd etmək olar:

**1. Allaha şərik qoşmaq:** Şirk – ibadətin hər hansı bir növünü Allahdan qeyrisinə aid etməkdir. Allaha şərik qoşmaq mütləq mənada ən böyük günah sayılır. Peyğəmbər ﷺ öz əshabından üç dəfə *"Sizə böyük günahların ən böyüyü barədə xəbər verimmi?"* – deyə soruşmuş, əshabı da: "bəli, ey Allahın elçisi", – dedikdə, Allah rəsulu ﷺ: *"Allaha şərik qoşmaqdır"*, – deyə cavab vermişdir (Buxari və Müslim). Allahın əzabından qorxan və Onun rəhmətinə ümid bəsləyən birisi tək Allahın haqqı olan ibadəti necə Ondan qeyrisinə aid edə bilər?!

***Bəzi şirk nümunələri:***

• Hər hansı bir ölünün insanlara fayda vermək, onların başına gələcək bəlaları dəf etmək və onların ehtiyaclarını qarşılamaq qüdrətində olduğuna etiqad etmək.

• Allahdan qeyrisi üçün qurban kəsmək, Ondan başqasına dua etmək və yalnız Allahın qadir olduğu işlərdə Ondan başqasından yardım diləmək.

• Uca Allahın haram buyurduqlarını halal, halal buyurduqlarını isə haram etmək.

• Sehr-cadu əməlləri ilə məşğul olmaq, habelə falçı, cadugər yanına getmək və onların dediklərini təsdiqləmək.

• Allahdan qeyrisinə and içmək. Allahdan başqasına onu Allahı təzim edirmiş kimi and içmək böyük şirk, Allahı təzim edirmiş kimi deyil, sadəcə olaraq dil vərdişi kimi and içmək isə kiçik şirk sayılır. Kiçik şirk sayılan bu əməl, həm də böyük günahlardan hesab edilir.

• Qəbirlər üzərində türbə tikmək və orada namaz qılmaq. Bu əməl Peyğəmbərin ﷺ çəkindirdiyi böyük günahlardan biridir. Belə ki, o ﷺ demişdir: *"Sizdən öncəki qövmlər peyğəmbərlərinin və saleh insanların qəbirlərini ibadətgaha çevirirdilər. Siz nəbadə qəbirləri ibadətgaha döndərəsiz. Mən bunu sizə qadağan edirəm"* (Müslim). Bu əməlin çirkin və təhlükəli, habelə şirkə vəsilə olması səbəbilə Peyğəmbər ﷺ bunu edənləri lənətləmişdir. Əslində, qəbir üzərində tikilən türbələr dağıdılmalıdır. Həmçinin bilmək lazımdır ki, qəbir üzərində tikilən türbə və məscidlərdə qılınan namazlar batildir və həmin namazlar yenidən qılınmalıdır.

**2. Dində yeniliklər ortaya çıxartmaq:** Bidət – Allah və Rəsulunun ﷺ buyurmadığı, insanların din adına özlərindən uydurduqları əməllərdir. Bu cür bidət olan əməllərə Peyğəmbərimizin ﷺ və digər insanların mövludunu qeyd etməyi, isra və merac, habelə Şaban ayının on beşinci gecələrini ibadətlə keçirməyi və bu kimi Quranda qeyd olunmamış, Peyğəmbərin ﷺ də bizə öyrətmədiyi əməlləri misal göstərmək olar. Bidət əməllərlə məşğul olmaq Peyğəmbəri ﷺ dini tam çatdırmamaqda ittiham etmək və Uca Allahın bu kəlamını təkzib etmək sayılır: *"Bu gün*

*dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim"* (əl-Maidə: 3). Çünki bidət olan əməl ya həqiqətdə dindəndir, lakin Quranda qeyd olunmayıb və Peyğəmbər ﷺ də onu bizə çatdırmayıb. Hansı ki bu ehtimal mümkünsüzdür (çünki Allah və Rəsulunun ﷺ bizə çatdırmadığı bir şey heç vaxt dindən sayıla bilməz). Ya da ki bidət olan əməl dindən deyildir, lakin insanlar onu öz nəfsi-havalarından uydurararaq Allahın dininə əlavə ediblər. Belə olduğu təqdirdə isə həmin əməli icra etmək qətiyyən yolverilməzdir.

**3. Namaz qılmamaq, yaxud namaza qarşı laqeyd olmaq:** Bu hal şəriətə müxalif olan münkər bir əməldir. Namaz qılmayan, yaxud namazlarına qarşı səhlənkar olan şəxs böyük bir təhlükə ilə üzbəüzdür. Bu təhlükə barədə Peyğəmbər ﷺ belə demişdir: *"Bir insanla küfr və şirk arasında namaz qılmamaq dayanır"* (Müslim). Hər bir müsəlman bu ibadətə ehtimam göstərməli və namazlarını vaxtı-vaxtında qılmalıdır. Çünki bu əzəmətli ibadət Cənnətə daxil ola bilmənin ən böyük səbəblərindəndir.

**4. Sələmçilik:** Sələmçilik şəriətə müxalif olan münkər bir əməldir. Uca Allah buyurur: *"Ey iman gətirənlər! Allahdan qorxun və əgər möminsinizsə, sələmdən qalan faizi almayın. Bunu etməsəniz, Allahın və Onun Elçisinin sizə müharibə elan etdiyini bilin"* (əl-Bəqərə: 278-279). Hər bir müsəlman sələmçilikdən, habelə qumardan, mərc oyunlarından, oğurluqdan və insanların malını haqsızca mənimsəməyə səbəb olacaq hər bir çirkin əməldən uzaq durmalı və həzər etməlidir.

**5. Zina etmək:** Bu əməl nə şəriətin, nə ağılın, nə də sağlam fitrətin qəbul etdiyi və bir çox xəstəliklərin yayılmasına, habelə nəsillərin qarışmasına səbəb olan çirkin bir əməldir. Uca Allah buyurur: *"Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!"* (əl-İsra: 32) Müsəlman özünü bu çirkin əməldən qorumalı və ona aparan hər bir yoldan uzaq durmalıdır. Bir-birlərinə naməhrəm olan yad kişi və qadının təkbaşına bir yerdə olmaları, kişinin yad qadına, qadının da yad kişiyə şəhvət hissi ilə baxması, açıq-saçıq geyinmək və müsəlman bir qadının

örpəyinə – hicabına qarşı laqeyd olması zinaya səbəbiyyət yaradan amillərdəndir. Həmçinin kişinin kişi və qadının da qadın ilə haram münasibətdə olması həm şəriət nəzərində böyük günahlardandır, həm də səlim fitrətin qəbul etmədiyi, hətta heyvanların belə uzaq durduqları çirkin bir əməldir. Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunmuşdur: *"Kişi kişi ilə, qadın da qadın ilə haram əlaqədə olsa, onların hər ikisi də zinakar hesab olunurlar"* (Beyhəqi).

**6. Şərab içmək:** Bu barədə öncəki səhifələrdə məlumat vermişik.

**7. Zülm etmək:** Peyğəmbər ﷺ demişdir: *"Zülm Qiyamət günü zülmət olacaqdır"* (Buxari və Müslim).

**8. Yalan danışmaq:** Peyğəmbər ﷺ demişdir: *"Yalan danışmaqdan çəkinin! Həqiqətən yalan əxlaqsızlığa, əxlaqsızlıq da Cəhənnəmə aparır"* (Buxari və Müslim).

**9. Qeybət etmək:** Qeybət – bir müsəlmanın müsəlman qardaşının arxasınca pis danışmasıdır. Uca Allah belə buyurur: *"Bir-birinizin qeybətini qırmayın"* (əl-Hucurat: 12).

**10. Söz gəzdirmək:** Nəmmamlıq – İnsanların arasını vurmaq üçün birindən digərinə söz çatdırmaqdır. Peyğəmbər ﷺ demişdir: *"Nəmmam Cənnətə girməyəcəkdir"* (Buxari və Müslim).

**11. Hiyləgərlik etmək:** Peyğəmbər ﷺ demişdir: *"Bizi aldadan bizdən deyildir"* (Müslim).

**12. Kişinin paltarının həddən artıq aşağı olması:** İsbal – paltarın topuqdan aşağı düşməsinə deyilir. Peyğəmbər ﷺ demişdir: *"İzarın (şalvar və s.) topuqdan aşağı düşən hissəsi Cəhənnəm odundadır"* (Buxari).

**13. Qadının açıq-saçıq geyinməsi:** Müsəlman qadın şəriətin tələb etdiyi geyim formasına – hicaba riayət etməli və örtünməsi vacib olan yerlərini yad kişilərə izhar etməməlidir. Uca Allah buyurur: *"Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin*

*qadınlarına de ki, naməhrəm yanında çarşabları ilə örtünsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir”* (əl-Əhzab: 59). Qadın, əslində, cövhər kimi gözəl və dəyərli bir varlıqdır. Onu pis insanların nəzərindən qorumaq lazımdır və bu da məhz şəri hicab ilə mümkündür. Hicab qadının örpəyi və onun mühafizidir. Hicab sayəsində qadının şərəfi, hörməti qorunur və ona layiq olduğu dəyər verilmiş olur.

Qeyd etmədiyimiz digər asiliklər də vardır ki, hər bir müsəlman Allaha itaət naminə, habelə Onun rizasını və Cənnətini qazanmaq üçün bu cür günahlardan həzər etməlidir.

**Diqqət olunası bəzi nüanslar:**

1. Bəzi insanlar vardır ki, onların yanında Uca Allahın haram etdiyi əməllər qeyd olunanda ürəkləri sıxılır, haramların çoxluğuna görə narahat olurlar. Allahdan bu cür insanlar üçün hidayət diləyirik. Təbii ki, bütün bunlar Allaha imanın və dini bilgilərin zəifliyindən qaynaqlanır. Çünki, əslində, şəriətin qadağan etdiyi şeylər istisna olmaqla, yer üzündə olan hər şey halal və icazəlidir. Əgər biz halal və icazəli olan şeyləri qeyd etmək istəsək, o zaman bunun üçün minlərlə səhifə lazım olar ki, heç hamısını qeyd edib tamamlaya da bilmərik. Çünki haram olan şeylər halalların müqabilində ölçülməyəcək qədər azdır.

2. Uca Allah sonsuz hikmət və elm sahibidir. Əgər O bir şeyi qadağan edirsə, heç şübhəsiz ki, bu, insanın xeyri və mənfəəti üçündür. Belə ki, Uca Allah insanların bir-birlərinə zülm etmələrini, bir-birlərinin mallarını haqsızcasına mənimsəmələrini, həddi aşmağı, habelə çirkin və zərərli şeyləri qadağan etmişdir. Bütün bunlarla insanın dini, canı, ağlı, irzi və malı qorunmuş olur.

3. Həmçinin bilmək lazımdır ki, Uca Allah bəzi şeyləri qadağan etməsilə Öz bəndələrini imtahan edir ki, görsün kim necə hərəkət edəcək. Beləcə əmrlərinə boyun əyən və qadağan etdiklərindən uzaq duran qullarını böyük bir mükafat – Cənnət ilə mükafatlandıracaqdır. Uca Allah həmin Cənnətin vəsfi barədə belə buyurur: *“Orada onların ürəkləri istəyən və gözlərini oxşayan hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız!”* (əz-Zuxruf: 71) Peyğəmbər ﷺ isə onun vəsfi barədə belə demişdir: *“Cənnətdə heç*

*bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç bir insanın ağlına belə gəlmədiyi nemətlər vardır"* (Müslim). Bir anlıq özünüz düşünün, əgər Cənnət bu cür ecazkardırsa, onu əldə etmək üçün səbir etməyə, dözməyə dəyməzmi?! Allahın rizasını əldə etmək isə ən ali məqsəddir.

Uca Allahdan diləyirəm ki, Öz lütfü və mərhəməti ilə bizləri Cənnət əhlindən etsin! Amin! Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün əshabına Uca Allahın salam-duası olsun!

# MÜNDƏRİCAT

Peyğəmbər məscidinin imam xətibi doktor Əli ibn Əbdürrəhman əl-Hüzeyfinin kitaba yazdığı təqdimatı....4
Kəbə məscidinin imam xətibi, Məkkə şəhərinin qazisi Saleh ibn Muhəmməd ali Talibin kitaba yazdığı təqdimatı....5
Müəllifin müqəddiməsi....7
Birinci dərs: Qurani-Kərim....10
İkinci dərs: Peyğəmbərin ﷺ sünnəti....18
Üçüncü dərs: Üç əsas təməl....21
Dördüncü dərs: "Lə iləhə illəllah, Muhəmmədun rəsulullah" şəhadəti....25
Beşinci dərs: Tövhid və onun növləri....29
Altıncı dərs: Tövhidə zidd olan anlayış....33
Yeddinci dərs: İmanın rüknləri....36
Səkkizinci dərs: İslamın rüknləri....42
Doqquzuncu dərs: Namaz qılmağın qaydası....48
Onuncu dərs: Cümə, Bayram və Cənazə namazları....57
On birinci dərs: Zəkat vermək....60
On ikinci dərs: Zəkat veriləcək şəxslər və fitrə zəkatı....65
On üçüncü dərs: Oruc tutmaq....67
On dördüncü dərs: Orucun qəzası və könüllü oruclar....70
On beşinci dərs: Həcc etmək....72
On altıncı dərs: İslamda maliyyə əməliyyatları....74
On yeddinci dərs: İslamda evlilik....76
On səkkizinci dərs: Qidalar....79
On doqquzuncu dərs: Müsəlmanın əxlaqı....82
İyirminci dərs: Əksər müsəlmanların mübtəla olduğu günahlar....85